13 mart 2019 №20 (1605)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Teatr və konsert müəssisələri işçilərinin maaşları 50 faiz artırılıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də teatr və konsert müəssisələri işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında sərəncam imzalayıb.

Sərəncama əsasən, ölkəmizdə teatr sənətinin daha da inkişaf etdirilməsi, teatr və konsert müəssisələri işçilərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə dövlət büdcəsindən maliyyə yardımı alan teatr və konsert müəssisələrində çalışan işçilərin aylıq vəzifə maaşları 2019-cu il martın 1-dən orta hesabla 50 faiz artırılıb.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə sərəncamın icrası ilə bağlı zəruri tədbirlər görmək tapşırılıb.

## Doğma yurdda bahar ovqatı

### Cocuq Mərcanlı kəndində Novruz bayramı münasibətilə el şənliyi keçirilib

Martın 12-də Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin "Qayıdış" parkında Novruz bayramı münasibətilə şənlik keçirildi. Tədbir Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Cəbrayıl Rayon İcra Hakimiyyətinin dəstəyi ilə reallaşdı.

Mərasimdə mədəniyyət nazirinin müavini Rafiq Bayramov, Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov, Cocuq Mərcanlı kənd sakinləri, N saylı hərbi hissənin əsgərləri və digər qonaqlar iştirak edirdi.

Əvvəlcə bayram tonqalı yandırıldı. Tədbir iştirakçıları Biləsuvar, Kürdəmir və Sabirabad regional mədəniyyət idarələrinin təşkil etdiyi dekorativ-tətbiqi sənət sərgisi, el sənətkarlarının əl işləri, rəsm əsərləri, milli mətbəx nümunələri ilə tanış oldular. Sərgidə bayram xonçaları, müxtəlif növ şirniyyatlar, səmənilər və xalça nümunələri nümayiş olunurdu.

Kosa və Keçəlin zarafatları, şən musiqi nömrələri hər kəsdə xoş ovqat yaratdı.



Mərasimdə çıxış edən mədəniyyət nazirinin müavini Rafiq Bayramov tədbir iştirakçılarını salamlayaraq öz təbriklərini çatdırdı: "Əziz qonaqlar və Cocuq Mərcanlı kəndinin sakinləri! Sizi Yel çərşənbəsi və qarşıdan gələn Novruz bayramı münasibətilə Mədəniyyət Nazirliyinin kollektivi adından təbrik edirəm. 2016-cı ilin Aprel döyüşləri zamanı Azərbaycan Ordusu tərəfindən azad edilən və dövlət başçısının xüsusi diqqəti sayəsində qısa müddətdə yenidən qurulan Cocuq Mərcanlıda bayram tədbirinin keçirilməsi böyük rəmzi məna daşıyır. Bu bir daha göstərir ki, biz bütün işğal olunmuş torpaqlarımızı azad edəcəyik".

davamı səh. 2-də

## "Qardaşlıq və sülh naminə bir arada olmaq nə xoşdur"

### Novruzu bayram edən ölkələrin diplomatları Yel çərşənbəsini birgə qeyd etdilər

Ötən axşam (12 mart) Novruzun – baharın müjdəçiləri olan dörd ilaxır çərşənbədən üçüncüsü – Yel çərşənbəsi yurdumuza qədəm qoydu.

Yel çərşənbəsi xalq arasında "külək oyadan çərşənbə", "küləkli çərşənbə" kimi də tanınır. Əski inanclara görə, bu çərşənbədə yel, külək oyanmış suyu, odu hərəkətə gətirir. Şifahi xalq yaradıcılığında Yelin tanrı olması ilə bağlı müxtəlif nəğmə, əfsanə, rəvayət, məsəl və s. yaranıb.

Yel xalqımızın mifik təfəkküründə yolgöstərən, bələdçi rolunu da yerinə yetirir. Yel baba qalın meşələrdə azıb mənzilini tapmaqda çətinlik çəkən xeyirxah insanların qarşısına çıxır, onlara bir yumaq verir. Yel babanın üfürməsi ilə yumaq açılır və azmışları mənzil başına çatdırır.

Yel çərşənbəsindən başlayaraq axır çərşənbə üçün hazırlıq görülür. Çünki Novruza yalnız bir çərşənbə qalıb...

Martın 12-də Türkiyənin Bakıdakı səfirliyində Azərbaycanda fəaliyyət göstərən türkdilli ölkələrin və Novruz bayramını qeyd edən dövlətlərin səfirliklərinin birgə təşəbbüsü ilə Yel çərşənbəsi və Novruz adətlərinə həsr olunmuş tədbir keçirildi.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçirilən tədbirdə iştirakçılar əvvəlcə hər bir ölkənin Novruz adətlərini və Novruz mətbəxini əks etdirən sərgi ilə tanış oldular.

davamı səh. 2-də

## Yeddinci Muğam televiziya müsabiqəsi başlandı

Məlahətli səsə sahib olmaq xüsusi istedaddır. Bu istedadın üzə çıxması üçün geniş imkanlar gərəkdir. Elə bu baxımdan ənənəvi olaraq iki ildən bir təşkil olunan Muğam televiziya müsabiqəsi təqdirəlayiqdir. Peşəkar münsiflər heyətinin fikrincə, növbəti dəfə muğamsevərləri ətrafına toplayacaq VII Muğam televiziya müsabiqəsini çox gözəl səslər bəzəyəcək.

Heydər Əliyev Fondunun dəstəyi, Azərbaycan Televiziyasının təşkilatçılığı, Mədəniyyət Nazirliyinin iştirakı ilə keçirilən müsabiqəyə martın 12-də Beynəlxalq Muğam Mərkəzində start verildi.



Builki müsabiqədə 20 iştirakçı qələbə üçün mübarizə aparacaq. Münsiflər heyəti layihənin yekununda məlahətli səsə sahib olan ən yaxşı gənc xanəndəni müəyyənləşdirəcək.

Xatırladaq ki, VII Muğam televiziya müsabiqəsində iştirak üçün ölkə üzrə ümumilikdə 400 ifaçı müraciət etmişdi. Regionlar üzrə seçim və paytaxtda keçirilən dinləmələrdən sonra onlardan 20-si layihədə iştirak etmək hüququ qazanıb.

Münsiflər heyətinin tərkibinə xalq artistləri Əlibaba Məmmədov, Arif Babayev, Mənsum İbrahimov, Səkinə İsmayılova, Mələkxanım Əyyubova, Bəstəkarlar İttifaqının katibi, Əməkdar incəsənət xadimi Sərdar Fərəcov və müsabiqənin icraçı direktoru, Yazıçılar Birliyinin katibi İlqar Fəhmi daxildir.

Müsabiqə hər həftənin 2-ci və 4-cü günlərində "Mədəniyyət" kanalı vasitəsilə canlı olaraq yayımlanacaq.



## "Zamanla üz-üzə" qalmaq istəyənlər üçün sərgi

Martın 12-də Muzey Mərkəzinin qalereyasında Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti, Qobustan Milli Tarix-Bədii Qoruğu və Rəssamlar İttifaqının təşkilatçılığı ilə ərsəyə gələn "Zamanla üz-üzə" adlı sərginin açılış mərasimi keçirildi.

Giriş sözü söyləyən Qobustan Milli Tarix-Bədii Qoruğunun direktoru Vüqar İsayev bildirdi ki, "Reinkarnasiya 5" layihəsi çərçivəsində reallaşan "Zamanla üz-üzə" sərgisində Rəssamlar İttifaqı üzvlərinin Qobustan mövzusunda 60-a yaxın orijinal əl işi nümayiş etdirilir. Onun sözlərinə görə, maraqlı ideyanın reallaşması üçün Rəssamlar İttifaqı tərəfindən qoruq rəhbərliyinə müraciət edilib və buna müsbət cavab verilərək müvafiq təşkilati dəstək göstərilib.

Vurğulandı ki, 18-20 min il yaşı olan Qobustan qayaüstü təsvirlərini yeni interpretasiyada izləyiciyə çatdıran layihənin məqsədi Qobustanın mədəni irsinin təbliği ilə yanaşı, incəsənət xadimlərində bu mövzuya maraq yaradılmasına nail olmaqdır. Sərgidə rəsm əsərləri, heykəltəraşlıq və keramika, video-instalyasiya formatında olan sənət əsərləri yer alıb.

davamı səh. 4-də

## Saza sirdaş sənətkar

Martın 11-də Azərbaycan Dövlət Akademik Filarmoniyasında Mədəniyyət Nazirliyi və Aşıqlar Birliyinin təşkilatçılığı ilə Əməkdar incəsənət xadimi, ustad aşıq Ədalət Nəsibovun (1939-2017) 80 illiyinə həsr olunan "Sazın Ədaləti" adlı yubiley gecəsi keçirildi.

Tədbirdə mədəniyyət nazirinin müavini Rafiq Bayramov, mədəniyyət, ədəbiyyat xadimləri, saz-söz sənətinin nümayəndələri iştirak edirdi.

Tədbiri Aşıqlar Birliyinin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı açaraq bildirdi ki, bu gün böyük ustadın 80 illik yubileyinə yığışmışıq:




"Bu yubileylə bağlı sənətkarla hələ sağlığında söhbət etmişdik. O, belə bir şərt kəsmişdi ki, 80 illik yubileyi keçirərik. Ancaq yubileyin aparıcısı sən olarsan. Mən də razılaşdım. Bu gün mən gəlmişəm, öz yerimdəyəm. Amma Ədalət Nəsibov aramızda yoxdur. O, dünyasını dəyişdi və haqq dünyasına qovuşdu".

Qeyd olundu ki, aşıq Ədalət Qazax rayonunda dünyaya göz açıb. Ancaq onun kökləri Göyçə ellərinə, Dədə Ələsgər ocağına bağlı idi:

davamı səh. 3-də

## Eksperimental tamaşalar festivalından son qeydlər

Martın ilk günündən Azərbaycan teatr cameəsinin gündəmini zəbt etmiş "Boş məkanın doluluğu 2" Eksperimental tamaşalar festivalı sona çatdı. Festival qaliblərinin adlarını sonuncu tamaşa oynanılan gün yox, ta ertəsi gün, 10 mart – Milli teatr günündə, milli sənət dünyamızın ilk peşəkar bayramında bildik. Bu barədə bir qədər sonra. Hələliksə, ötən saylarımızda başladığımız festival icmalına davam edirik.

* * *

Martın 7-də Bakı Uşaq Teatrının "Sevgi şimşəyi" tamaşası nümayiş olundu. Bu tamaşaya təməl olmuş Rövşən Ağayevin "Bir gecənin nağılı" pyesi "iki aktyorun teatrı" olaraq çox maraqlı səhnə quruluşuna imkan verir. Düzdür, biz bu tamaşanın premyerasında iştirak etmişdik, yazı da ("Mədəniyyət" qəzeti, 11.01.2019) yazmışdıq. Amma teatrın eksperimentləri bitmәz ki!.. Gülər Ləzgiyeva, Mehman Dilqəmoğlu və Ədalət Ağaverdizadənin ifasında gördüyümüz ilk tamaşa hara, festival çərçivəsində baxdığımız tamaşa hara! Tamaşanın quruluşçu rejissoru (Əməkdar artist İntiqam Soltan) təkcə Gülər xanımı digər aktrisa əvəz etmədi, həm də səhnədəki iki əsas qəhrəmanı 4 aktyorun - Mehman Dilqəmoğlu, Rauf Hüseynli, Nərmin Məhərrəmova və Gülnarə Abbasovanın ifasında təqdim etdi. Bəli, festival təkcə bütün kollektivin deyil, həm də tək-tək aktyorların sənət tanıtımıdır fikrindən çıxış etsək, teatr rəhbərliyi uğurlu yol seçmişdi.



...Həmin günün axşamı Akademik Milli Dram Teatrının Abbas Mirzə Şərifzadə səhnəsində Ç.Aytmatovun "Gün var əsrə bərabər" romanı əsasında hazırlanan "Manqurt" tamaşası oynanıldı. Ötən teatr mövsümündən repertuarda olan bu tamaşa da qəzetimizin (11.07.2018) diqqətindən yayınmayıb...

davamı səh. 5-də

Nəsiminin söz mehi İstanbulda da əsdi



səh. 4

Bakıda "Testene-Art" III Beynəlxalq incəsənət festival-müsabiqəsi keçiriləcək

səh. 2



Moskvada Vaqif Mustafazadənin xatirəsinə həsr olunmuş caz gecəsi

səh. 8

№20 (1605)
13 mart 2019
www.medeniyyet.az

# “Qardaşlıq və sülh naminə bir arada olmaq nə xoşdur”

## Novruzu bayram edən ölkələrin diplomatları Yel çərşənbəsini birgə qeyd etdilər

*əvvəli səh. 1-də*

Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral çıxış edərək tədbirə qatılan bütün qonaqlara təşəkkür etdi. Bildirdi ki, Tacikistan səfiri tərəfindən irəli sürülən bu təşəbbüs nəticəsində Novruzu bayram edən ölkələrin səfirlikləri bir araya gələrək baharın müjdəsi olan Yel çərşənbəsini birgə qeyd etmək qərar veriblər: “Bu gözəl təşəbbüsə qoşularaq bu gün qardaşlıq və sülh naminə bir arada olmaq nə xoşdur”.

Tədbirdə çıxış edən mədəniyyət naziri Əbülfəs Qarayev qonaqları Yel çərşənbəsi münasibətilə təbrik etdi, bu təşəbbüsə qoşulan hər kəsə və tədbirin ərsəyə gəlməsində əməyi olan nazirliyin əməkdaşlarına təşəkkürünü bildirdi.

Nazir qeyd etdi ki, bu gün səfirliklərin təqdim etdikləri gözəl Novruz nemətləri bizim xalqlarımızın zəngin mədəniyyətindən və eyni zamanda bir-birinə yaxınlığından xəbər verir: “Azərbaycan xalqı Novruzu bütün dövr və zamanlarda daima böyük sevinclə qeyd edib və bu, xalqımızın müqəddəs saydığı bayramlardan biridir. Bu bayram sülh və qardaşlıq, paylaşma rəmzidir. Təbiətin oyanışı ilə bərabər xalqlarımızın gözəl duyğuları, sülhpərvərlik hisləri də oyanır. Novruz həm də insanlarda əməksevərlik və məhəbbət oyadır. Qədim köklərə malik olan bayram bu günə kimi qorunaraq öz adət və ənənələri ilə yaşayır, evlərə sevinc gətirir. Nə yaxşı ki, müasir dövrdə də bəşəriyyət bu bayramı qeyd edir, adətləri yaşadır. Bu bayram bu gün nəinki bizim xalqlara, eləcə də bütün bəşəriyyətə məxsusdur”.









Əbülfəs Qarayev diqqətə çatdırdı ki, 2009-cu ildə Novruz Azərbaycanın və bu bayramı qeyd edən dövlətlərin birgə təşəbbüsü ilə UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilib. 2010-cu ildə BMT-nin Baş Assambleyası 21 martı Beynəlxalq Novruz Günü elan edib. Beləliklə, Novruz beynəlxalq status qazanaraq dünyaya təqdim olunub.

“Bir daha hər birinizi Novruz münasibətilə təbrik edir, sülh və əmin-amanlıq arzulayıram. Bəşəriyyətdə müxtəlif ənənələr və cəmiyyətlər yaşayır. Onları birləşdirən amil isə ana təbiətdir. Təbiətin oyanışı hər birinizə yeni gün, yeni arzularla bərabər dünyaya sülh gətirsin”, - deyə nazir çıxışını bitirdi.

BMT-nin Azərbaycan üzrə nümayəndəsi Qulam İsaqzai bildirdi ki, Novruz bayramı qardaşlıq, ölkələr, xalqlar arasında isti münasibətlər deməkdir. Müasir dövrümüzdə baş verən münaqişələri bəlkə də qədim kökə malik Novruz adətləri ilə əritmək, həll etmək olar. “Bütün bəşəriyyəti, Azərbaycan xalqını və tədbirə qatılan ölkələri bu sülh bayramı münasibətilə təbrik edirəm”, - deyə BMT təmsilçisi vurğuladı.

Tacikistanın Azərbaycandakı səfiri Rüstəm Soli Novruz bayramının ənənələrindən söz açdı, təşəbbüsə dəstək göstərən bütün səfirliklərə təşəkkür etdi. Xalqlarımız arasında dostluq, qardaşlıq yaradan Novruz münasibətilə təbriklərini çatdıran səfir dünyaya sülh, ortaq Novruz mədəniyyətinə malik xalqlara əmin-amanlıq və firavan həyat arzuladı.

Tədbir səfirlik nümayəndələrinin Yel çərşənbəsi tonqalı ətrafında rəqsi və incəsənət ustalarının ifasında konsert proqramı ilə davam etdi.

Tədbirdə Mədəniyyət Nazirliyinin Xalq yaradıcılığı və mədəni marşrutların inkişafı şöbəsinin təqdim etdiyi sərgi və Novruz şirniyyatlarından ibarət milli mətbəx nümunələrimiz böyük maraqla qarşılandı. Xüsusi tərtibatı ilə seçilən Azərbaycan guşəsi xarici qonaqlara bir daha xalqımızın Novruz irsinin zənginliyini nümayiş etdirdi.

**L.AZƏRİ**

# Azərbaycan-Türkiyə müştərək xalq oyunlarına həsr olunmuş panel

Martın 14-də “Azərbaycan-Türkiyə müştərək xalq oyunları və ənənələri” adlı panel keçiriləcək.

Mədəniyyət Nazirliyi, Bakı Yunus Əmrə İnstitutu, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin Bakı nümayəndəliyi, AMEA-nın Folklor İnstitutunun birgə təşəbbüsü ilə AMEA-nın əsas binasında reallaşacaq tədbirdə xalq oyunları və ənənələri ilə bağlı müxtəlif mövzularda məruzələr dinləniləcək.

Bakı Yunus Əmrə İnstitutundan bildirilib ki, Novruz bayramı münasibətilə keçiriləcək tədbirdə məqsəd hər iki ölkənin müştərək xalq oyunları və ənənələri mövzusunda elmi müzakirələr aparmaq, bu irsin gələcək nəsillərə ötürülməsinin əhəmiyyətini vurğulamaqdır.

# Bakıda növbəti “Testene-Art” festival-müsabiqəsi keçiriləcək

14-17 martda paytaxtımızda “Testene-Art” III Beynəlxalq incəsənət festival-müsabiqəsi keçiriləcək. Tədbir Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin dəstəyi, İtaliya Beynəlxalq Mədəniyyət Assosiasiyasının və Cövdət Hacıyev adına 3 nömrəli onbirillik Musiqi məktəbinin təşkilatçılığı ilə gerçəkləşəcək.



Martın 12-də Bakı Şəhər Mədəniyyət Baş İdarəsində festival-müsabiqəyə hazırlıqla bağlı görüş keçirilib.

Baş idarənin rəisi Cəlil Məlikov, festival-müsabiqənin təşkilat komitəsinin üzvləri, İtaliya Beynəlxalq Mədəniyyət Assosiasiyasının prezidenti Zayka İnessa, vitse-prezidenti Olqa Naymuşina və bədii rəhbəri İqor Bubençikovun iştirakı ilə festivala son hazırlıq işləri, gələcək birgə fəaliyyət haqqında fikir mübadiləsi aparılıb.

Qeyd olunub ki, müsabiqə instrumental, vokal, rəqs, teatr, folklor, moda və dizayn, dekorativ-tətbiqi sənət, xalq çalğı alətləri nominasiyaları üzrə təşkil ediləcək. Yarışmada müxtəlif yaş qrupları üzrə respublikamızdan və müxtəlif ölkələrdən kollektivlər iştirak edəcək.

Görüşdə müsabiqənin münsiflər heyətində yer alan mütəxəssislər tərəfindən Bakının musiqi və incəsənət məktəblərində fortepiano, skripka ixtisasları və rəssamlıq üzrə ustad dərslərinin təşkil olunması haqqında razılıq əldə edilib.

“Testene Art Baku” Beynəlxalq festival-müsabiqəsi ilk dəfə 2016-cı ildə keçirilib.

Builki festival-müsabiqənin qaliblərinin mükafatlandırma mərasimi və qala-konserti martın 17-də Azərbaycan Teatr Xadimləri İttifaqında keçiriləcək.

**LALƏ**

# “Ənənədən gələcəyə” adlı dəfilə

Martın 15-də Muzey Mərkəzində Mədəniyyət Nazirliyinin təşkilati dəstəyi ilə Bakı Milli Geyim Evinin “Ənənədən gələcəyə” adlı dəfiləsi keçiriləcək.

Bakı Milli Geyim Evinin 10 illik yubileyinə həsr olunmuş dəfilədə bu illər ərzində hazırlanmış geyimlərlə yanaşı, yeni kolleksiyalar da qonaqlara təqdim olunacaq.

# Doğma yurdda bahar ovqatı

*əvvəli səh. 1-də*

Nazir müavini bildirdi ki, 1994-cü ildə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə ordumuzun həyata keçirdiyi və müasir hərb tariximizə azadlıq döyüşü kimi yazılan uğurlu Horadiz əməliyyatı zamanı Füzuli rayonunun 22 kəndi ilə bərabər Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi də işğaldan azad edilmişdi: “2016-cı ilin aprelində Azərbaycan Ordusu Ermənistan işğalçı qüvvələrinin təxribatına layiqli cavab verməklə tariximizə daha bir şanlı səhifə yazdı. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu əks-hücum əməliyyatı nəticəsində minlərlə hektar torpağımız, o cümlədən Lələtəpə yüksəkliyi işğaldan azad olundu. Ordumuz strateji əhəmiyyətli əraziləri nəzarətə götürdü. Nəticədə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində həyat öz axarına döndü. Sakinlərin öz kəndində yenidən məskunlaşması doğma yurda böyük qayıdışın möhtəşəm başlanğıcı oldu. Bu qayıdış əsl qəhrəmanlıq salnaməsi, torpağa bağlılığın parlaq nümunəsidir”.

Rafiq Bayramov çıxışının sonunda bir daha qarşıdan gələn Novruz bayramı münasibətilə təbriklərini çatdırdı, xoş arzularını bildirdi.

Tədbir daha sonra konsert proqramı ilə davam etdi. Konsertdə xalq artistləri Bilal Əliyev, Gülyanaq Məmmədova, əməkdar artistlər Səbuhi İbayev, Nüşabə Ələsgərli, Ehtiram Hüseynov və başqalarının ifasında xalq və bəstəkar mahnıları səsləndi. Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı üzvlərinin, Əməkdar mədəniyyət işçisi, aşıq Ağamurad İsrafilov, habelə Vüsal Zamanov, Şirvan Folklor ansamblı, Füzuli rayonu Mahmudlu-1 kənd Uşaq musiqi məktəbinin müəllimi Novruz Ağayev, Cocuq Mərcanlı kənd tam orta məktəbinin “Vətənpərvərlər” qrupu, Füzuli rayon Böyük Bəhmənli



kənd Uşaq musiqi məktəbinin məzunu Xəqani Şahbazov və başqalarının çıxışları da alqışlarla qarşılandı. Konsert proqramı tamaşaçılara əsl bayram əhval-ruhiyyəsi yaşatdı.

Qeyd edək ki, Cocuq Mərcanlı kəndi 1994-cü ilin yanvarında işğaldan azad olunsa da, Lələtəpə yüksəkliyi ermənilərin nəzarətində qaldığından burada sakinlərin təhlükəsiz yaşayışı mümkün deyildi. 2016-cı ilin Aprel döyüşlərində Lələtəpə yüksəkliyinin azad olunması bu təhlükəni aradan qaldırdı.

Prezident İlham Əliyevin sərəncamları ilə Cocuq Mərcanlıda birinci mərhələdə 50 evin, məktəb binasının, məscidin, elektrik yarımstansiyasının tikintisi həyata keçirildi, qaz, elektrik, rabitə, içməli su xətləri, uzunluğu 9 kilometr olan avtomobil yolu çəkildi. Kənddə tikinti işlərinin növbəti mərhələsində daha 100 ev, uşaq bağçası, tibb məntəqəsi, poçt, klub-icma mərkəzi üçün binalar və digər zəruri infrastruktur obyektləri, “Qayıdış” parkı inşa edilib.

Bu gün dövlətimizin diqqət və qayğısı sayəsində Cocuq Mərcanlıda həyat öz axarı ilə davam edir. Sakinlər məcburi köçkünlük həyatına son qoyaraq doğma kəndlərində, abad ev-eşiklərində yeni həyata başlayıblar. Martın 12-də “Qayıdış” parkında Novruz bayramı münasibətilə gerçəkləşən təntənəli mərasim və el şənliyi bunun bir daha nümayişi oldu.






**Fariz HÜSEYNOV**



# “Budəfəki görüşümüz xüsusi əhəmiyyət daşıyır”

## Mədəniyyət naziri vətəndaşların növbəti qəbulunu Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində keçirib

Prezident İlham Əliyevin müvafiq tapşırığına əsasən, hər ay mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda əhalinin qəbulu keçirilir. Mədəniyyət naziri Əbülfəs Qarayevin vətəndaşlarla növbəti görüşü martın 11-də Cəbrayıl rayonunun Cocuq Mərcanlı kənd klubunda gerçəkləşdi.

Qəbuldan öncə mədəniyyət naziri Əbülfəs Qarayev, Cəbrayıl Rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov, Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev 2016-cı il Aprel döyüşləri şəhidlərinin xatirəsinə ucaldılmış abidə kompleksini ziyarət etdilər. Abidənin önünə tər çiçək dəstələri düzüldü.

Sonra nazir Cocuq Mərcanlı kəndində Şuşadakı məşhur Gövhər ağa məscidinin bənzəri olaraq inşa edilən məscidi ziyarət etdi, “Qayıdış” parkında yaradılan şəraitlə tanış oldu. Əbülfəs Qarayev həmçinin kənd klubunda yerləşən Cocuq Mərcanlı kənd kitabxanasının fəaliyyəti ilə tanış olaraq, tapşırıq və tövsiyələrini verdi.

Qəbulda Beyləqan, Cəbrayıl, İmişli, Füzuli və Xocavənd rayonlarından vətəndaşların müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənildi.

Beyləqandan qəbula yazılmış sakinlər rayon Tarix-diyarşünaslıq muzeyinin açıq səma altında olan eksponatlarının bərpası, Mədəniyyət mərkəzinin nəzdində fəaliyyət göstərən “Gənclik” xalq teatrının heyəti üçün ustad dərslərinin keçirilməsi, teatra səhnə dekorasiyasının, səhnə geyimlərinin verilməsi və digər məsələlərlə bağlı xahişlərini nazirə çatdırdılar.

Cəbrayıl rayonundan olan vətəndaşların müraciətləri Cocuq Mərcanlı kənd klubunun səsgücləndirici və səsyayıcı avadanlıqlarla təchizatı, kənddə multimedia informasiya mərkəzinin yaradılması, cəbhə bölgəsində işləyən işçilərə əlavə imtiyazların verilməsi barədə idi.

Füzuli rayonundan olan vətəndaşlar istedadlı gənc rəssam Ceyhun Ənvərzadənin əsərlərinin respublikamızda və xarici ölkələrdə keçirilən sərgilərdə nümayiş olunması, ümummilli lider Heydər Əliyevin 1976 və 1982-ci illərdə Füzuli rayonuna səfərləri ilə bağlı çəkiliş lentlərinin əldə olunmasına köməklik göstərilməsi və digər məsələlər barədə xahişlərini bildirdilər.





İmişli rayonundan qəbula gələn sakinlər rayondakı Rəsm qalereyasında ekspozisiyanın yenilənməsi və sərgilənən əsərlərin mübadilə edilməsi, Uşaq incəsənət məktəbinə musiqi alətlərinin verilməsi, rayon Tarix-diyarşünaslıq muzeyində ekspozisiya işlərinin görülməsinə köməklik göstərilməsi barədə müraciət etdilər.

Xocavənd rayonundakı Nərgiztəpə arxeoloji abidəsinin bərpa olunması barədə təklif də diqqətə çatdırıldı.

Qəbulda müraciətlərin bir qismi həllini tapdı, digər məsələlər araşdırılması üçün nəzarətə götürüldü və lazımi tədbirlərin görülməsi üçün tapşırıqlar verildi.

**Ön cəbhədəki hərbçilərimizlə bir arada**

Nazir Əbülfəs Qarayev qəbuldan sonra Azərbaycan Ordusu hissələrinin Cocuq Mərcanlı kəndindəki döyüş postuna baş çəkdi. Nazir əsgərlərin xidmət şəraiti ilə tanış oldu, əsgər kazarmasında, yeməkxanada oldu.

General-mayor Mayis Bərxudarov hərbçilərimizin yüksək döyüş hazırlığı haqqında məlumat verdi. Vurğulandı ki, Ali Baş Komandan, Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində ordu hissələrimizin təchizatı ilə bağlı bütün məsələlər yüksək səviyyədə həll olunur, hərbçilərimiz işğal altındakı torpaqları azad etmək üçün veriləcək əmri yerinə yeritməyə hazırdır.

Nazir Əbülfəs Qarayev ön cəbhədə, düşmənlə üz-üzə dayanan əsgər və zabitlərimizi salamlayaraq bu görüşdən böyük məmnunluq duyduğunu vurğuladı. Bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələr, o cümlədən ordu quruculuğu uğurla inkişaf edir. Azərbaycan Ordusunun döyüş qabiliyyətinin yüksəldilməsinə, Silahlı Qüvvələrimizin maddi-texniki təchizatına daim xüsusi diqqət göstərilir. Bu diqqət və qayğı sayəsində Azərbaycan Cənubi Qafqazda ən güclü orduya malikdir. Qəhrəman hərbçilərimiz 2016-cı ilin aprelində düşmənin ön cəbhədəki təxribatına layiqincə cavab verməklə bunu bir daha nümayiş etdirdilər. Məhz həmin zəfər sayəsində işğal altındakı torpaqlarımızın bir hissəsi, Lələtəpə yüksəkliyi, digər strateji yüksəkliklər düşməndən azad edildi, Cocuq Mərcanlı kəndinin sakinləri doğma yurduna qayıtdı. Vurğulandı ki, yenidən qurulan Cocuq Mərcanlı Qarabağ müharibəsində gələcək zəfərlərimizin müjdəsidir.

Nazir qeyd etdi ki, bu gün biz bütün sahələrdə, bütün cəbhələrdə düşmənlə mübarizə aparırıq. İşğalçı Ermənistan təkcə torpaqlarımızı deyil, tariximizi, mədəniyyətimizi, musiqimizi, milli mətbəximizi də hədəf alıb. Torpaqlarımızın 20 faizini işğal etmiş Ermənistanın hərbi birləşmələri milli mədəniyyət abidələrimizi qəddarcasına dağıdıblar. Bu gün mədəniyyət sahəsində çalışan insanlarımız da düşmənin irsimizə, tariximizə qarşı bəd əməllərinə, düşmənin məkrinə qarşı mübarizə aparırlar. Tarixi-mədəni irsimizi, mədəni dəyərlərimizi düşməndən qorumaq keçmişimizə və gələcəyimizə sahib çıxmaq deməkdir.

Nazir hərbçilərimizə yeni zəfərlər arzulayaraq Ali Baş Komandanın rəhbərliyi ilə, əsgər və zabitlərimizin əzmi, qəhrəmanlığı sayəsində bütün torpaqlarımızın düşməndən azad olunacağına inamını ifadə etdi.

Sonda hərbçilərə kitablar, film izləmək üçün ləvazimatlar, milli filmlərin diskləri hədiyyə olundu.

Hərbi hissənin komandanlığı adından nazir Əbülfəs Qarayevə xatirə hədiyyəsi təqdim olundu.

Nazir mətbuata açıqlamasında Cocuq Mərcanlı kəndində keçirilən qəbulun, eləcə də ön cəbhədəki hərbçilərimizlə görüşün əhəmiyyətini vurğuladı.

Yerlərdə vətəndaşlarla bu cür görüşlərin mədəniyyət sahəsinin inkişaf etdirilməsində önəmindən bəhs edən nazir bildirdi ki, budəfəki görüş xüsusi əhəmiyyət daşıyır. Çünki bu görüş 2016-cı ilin Aprel döyüşlərində Azərbaycan Ordusunun zəfərindən sonra yenidən qurulan Cocuq Mərcanlı kəndində keçirilirdi. Bu kəndin sakinləri doğma torpağına qayıdıb, ölkə başçısı İlham Əliyevin xüsusi diqqət və qayğısı nəticəsində kənd yenidən qurulub. Fədakar vətəndaşlarımız bu gün öz doğma torpağında təhlükəsiz şəraitdə yaşayır.

Vurğulandı ki, qəbulda sakinlərin müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib: “Mədəniyyət sahəsində işin təkmilləşdirilməsi, mədəni irs abidələrinin qorunması və digər məsələlərlə bağlı müraciətlər oldu. Burada qaldırılan bütün məsələlər öz həllini tapacaq”.

Nazir onu da bildirdi ki, Cocuq Mərcanlıda keçirilən müxtəlif tədbirlərdə mədəniyyət işçiləri yaxından iştirak edir və martın 12-də Novruz bayramı münasibətilə təşkil ediləcək mərasim də buna nümunə olacaq.

**F.HÜSEYNOV**

# Saza sirdaş sənətkar

## Ustad aşıq Ədalət Nəsibovun 80 illiyinə həsr olunan gecə

*əvvəli səh. 1-də*

“Aşıq Ədalət ruhunda Qazaxın ənənəvi saz-söz aləmini, o bir tərəfdə isə Göyçənin ruhunu gəzdirirdi. Allahın verdiyi istedad onu zaman içərisində ayrı bir vətən tutmağa yönəltdi. Bu gün biz deyə bilmərik Ədalət Nəsibov Qazaxın, Göyçənin, Gəncənin və Azərbaycanın Ədalətidir. O, sazın Ədalətidir. Dədə Qorqudun qopuzu olduğu kimi... Sazın sirri, sözü nə idisə, onu daşıyan bir sənətkar idi. Yaxşı xatırlayıram, ustadla 1979-cu ildə görüşdük. O zaman onun 40 yaşı vardı. Amma 50-60 yaşında bir müdriki xatırladırdı. Özünü ağır tutmasında, danışığında xoş təsir bağışlayırdı. Elə hiss edirdin ki, o, elə indicə Dədə Qorqudun yanında olub, onun sirr və sehrini daşıyıb özü ilə gətirib. O, zəngin repertuara malik idi. Sazı bağrına basanda başqa bir aləm yaranırdı. İfaları ilə başdan-başa “Yanıq Kərəmi” olurdu. Çünki sənət aləminə “Yanıq Kərəmi” ilə gəlmişdi...”.

Məhərrəm Qasımlı sənətkarın repertuarının vaxtında yazıya alınmadığını təəssüflə qeyd etdi: “Hələ sağ ikən ona təklif etdim ki, gəl sənin bütün ifalarını lentə köçürək. Bildirdi ki, artıq gecdir. Bunu on il qabaq etmək olardı. İndi barmaqlarım o çeviklikdə deyil... İndi Ədalət Nəsibovdan 30-a yaxın saz havası qalıb. Aşıqlar Birliyinə gənc aşıqlar gəlir. Soruşuram müəllimin, ustadın kim olub. Deyirlər ki, aşıq Ədalət. Onun ifalarını dinləyir və öyrənirik. Bu o deməkdir ki, Ədalət Nəsibov ayrıca bir məktəbdir”.





Diqqətə çatdırıldı ki, Ədalət Nəsibovun sənəti, əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilib, Əməkdar incəsənət xadimi adına layiq görülüb, Prezident təqaüdçüsü olub: “Fəxr ediləsi haldır ki, sənətinin səsi Azərbaycanın hüdudlarını aşaraq Şərq və Avropa ölkələrinə yayıldı. Onun ruhu qarşısında baş əyirik. Ruhu şad olsun”.

Əməkdar mədəniyyət işçisi, aşıq Mahmud Məmmədov çıxışında qeyd etdi ki, bir var, ustada xidmət edir və ondan dərs alırsan. Bir də var ki, dünyaya sənətkar gəlirsən. Aşıq Ədalət dünyaya sənətkar gəlmişdi. O, ecazkar solo-saz ifaları və özünəməxsus oxu tərzi ilə yaddaşlarda əbədiləşib. 50-dən çox dastanı, onlarla aşıq şeirini sinəsində dəftər etmişdi. Görkəmli sənətkar sazı nə qədər gözəl çalırdısa, şeiri də o qədər gözəl oxuyurdu.

Xalq şairi Nəriman Həsənzadə sənətkarla bağlı xatirələrini bölüşdü. Bildirdi ki, Ədalət Nəsibov mahir ifası ilə dinləyiciyə sevinc bəxş edirdi. Hara gedirdisə, camaat ətrafını sarır, onunla təmasda olmaq istəyirdi. O, XX əsrin böyük sənətkarı idi. Xalq şairi daha sonra saza həsr etdiyi şeirini oxudu.

Azərbaycan Yazıçılar Birliyi Qazax bölməsinin rəhbəri, Əməkdar incəsənət xadimi, şair Barat Vüsal aşıq Ədalət sənətinin özəlliklərindən danışdı.

Çıxışlardan sonra bədii hissəyə keçildi. “Çeşmə” folklor qrupunun ifasında “Orta şəşəngi” səsləndi. Gecədə əməkdar mədəniyyət işçiləri Ədalət Dəlidağlı, Nemət Qasımlı, Əhliman Şirvanlı, Samirə Əliyeva, eləcə də Altay Məmmədli, Nəbi Nağıyev, Dəmir Vəliyev, İlham Aslanbəyli, Ramin Qarayev, Səlim Göyçəli, Əli Tapdıqoğlu, Roman Azaflı, Əli Pənahoğlu, Şirin Şahbuzlu, Əfsanə Kərimli, Ruhiyyə Zəngilanlı, Elməddin Məmmədli, Şəhriyar Qaraxanlı, gənc solo saz ifaçıları Elvin Axundov, Cavanşir Quliyev, Xətayi Kərimov, Şəhriyar Laçın, Fazil Ziyadxanoğlu çıxış etdilər. Proqramda “Yanıq Kərəmi”, “Orta sarıtel”, “Şirvan müxəmməsi”, “Təxmis”, “Göyçəgülü”, “Koroğlu dübeyti”, “Kərəm dübeyti”, “Mirzəcanı”, “Döymə Kərəmi”, “Cəlili”, “Aran gözəlləməsi”, “Osmanlı divanisi”, “Gözəlləmə”, “Naxçıvanı”, “Ruhani” havaları təqdim olundu. Çıxışlar alqışlarla qarşılandı.

Sonda görkəmli sənətkarın oğlu Hekayət Nəsibov ailələri adından tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirdi.

**Savalan FƏRƏCOV**

# Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi



Martın 12-də Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində “Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri” mövzusunda beynəlxalq elmi-praktik konfrans işə başladı.

2002-ci ildə təməli qoyulmuş konfrans bu il 18-ci dəfə keçirilir. Məqsəd türkologiya sahəsində aparılan araşdırmaların nəticələrinin ümumiləşdirilməsi və elmi informasiya mübadiləsidir. Hər il yaxın-uzaq ölkələrin müxtəlif tədris və elm ocaqlarında çalışan neçə-neçə mütəxəssis Bakıda bir növ ötən ilin elmi hesabatını verir. Budəfəki konfransda azərbaycanlı tədqiqatçılarla yanaşı, 6 ölkədən – Türkiyə, Rusiya, ABŞ, Qazaxıstan, Qırğızıstan və Türkmənistandan alimlərin əlliyədək məruzəsi dinləniləcək.

Konfransın iştirakçılarını və qonaqlarını dirijor Mustafa Aşurovun idarəsilə universitetin Xalq çalğı alətləri orkestri qarşıladı.

Plenar iclasda universitetin rektoru, sənətşünaslıq üzrə elmlər doktoru Ceyran Mahmudova açaraq konfrans iştirakçılarını salamladı.

Akademiklər – AMEA-nın Ədəbiyyat İnstitutunun direktoru İsa Həbibbəyli, Nizami adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru Rafael Hüseynovun təbrik nitqlərindən sonra AMEA-nın müxbir üzvü Rəna Məmmədova “Türk xalqları musiqisinin araşdırılmasının bəzi məsələləri”, Macarıstandan gəlmiş etnomusiqişünas Şando Sabo “Musiqi və dini təcrübə”, Türkiyə təmsilçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Tahirə Kərimova “Əhməd bəy Ağaoğlu: haqqın yenilməz cəngavəri” mövzusunda çıxışlar etdilər.

Plenar iclas başa çatınca konfrans iştirakçıları maraqlı bir sürprizlə qarşılaşdılar. Universitetin Rəssamlıq fakültəsində geyim dizaynı ixtisası üzrə təhsil alan tələbələrin hazırladığı “Türkün səsi. Yeni üfüqlər” dəb kolleksiyasının teatrlaşdırılmış təqdimatı oldu.

Fasilədən sonra konfrans öz işini üç bölmə üzrə davam etdirdi. “Türk xalqlarının musiqi mədəniyyəti: ənənə və müasirlik”, “Türksoylu xalqların bədii mədəniyyəti müasir mərhələdə: problemlər və perspektivlər”, “Əhməd bəy Ağaoğlu və türkçülük məfkurəsi” bölmələri üzrə məruzələr dinlənildi.

“Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri” mövzusunda beynəlxalq elmi-praktik konfrans martın 13-də işini iki bölmədə davam etdirəcək.

**G.MİRMƏMMƏD**

# Məşhur ifaçılar bölgələrdə

Martın 10-da Şamaxıda altı ölkənin məşhur pianoçularının iştirakı ilə möhtəşəm konsert proqramı təqdim olunub. Heydər Əliyev Mərkəzi və “Regional İnkişaf” İctimai Birliyinin təşkilatçılığı ilə keçən konsertdə ABŞ-dan Nikolas Rot, Almaniyadan Katarina Troytler, Azərbaycandan Xalq artisti Murad Hüseynov, Çindən Yundi Xu, Rusiyadan Rustem Saytkulov və Yaponiyadan Atsuşi İmada çıxış ediblər.



Tanınmış pianoçular tamaşaçılara İ.S.Bax. F.Şopen, F.Şubert, F.List, S.Prokofyev və digər dünya klassiklərinin əsərlərini solo ifa ediblər.

Qeyd edək ki, martın 7-də Bakıdakı Heydər Əliyev Mərkəzində “Heksameron. 6 royal” adlı konsert keçirilib. Konsertdə Azərbaycan və dünya ölkələri bəstəkarlarının əsərləri, o cümlədən italyan bəstəkarı Vinçentso Bellininin nadir hallarda ifa olunan “Heksameron” kompozisiyası altı pianoçunun birgə təqdimatında səslənib.

Layihənin davamı olaraq Bakı konsertində çıxış etmiş məşhur pianoçuların regionlara turları təşkil olunub. Şamaxıdan əvvəl Gəncə və Şəki şəhərlərində də konsertlər keçirilib.

**LALƏ**

№20 (1605)
13 mart 2019
www.medeniyyet.az

əvvəli səh. 1-də

# “Zamanla üz-üzə” qalmaq istəyənlər üçün sərgi

Mərasimdə çıxış edən mədəniyyət naziri Əbülfəs Qarayev öncə qarşıdan gələn Novruz bayramı münasibətilə iştirakçıları təbrik etdi, sərginin maraqlı və tarixi keçmişimizlə səsləşməsinin önəmini xüsusi vurğuladı: “Bu gün biz Qobustan qayaüstü təsvirlərini qeydə almaqla, təsnifləşdirməklə, riyazi hesablamalar aparmaqla, digər mənbələrlə müqayisə etməklə onları yaradan insanları anlamağa çalışırıq. Təqdim olunan əsərlərin müəllifləri də sanki Qobustan qayalarında əbədi iz qoymuş qədim rəssamlarla dialoqa girərək keçmişlə bu günü üzləşdirməyə çalışıblar”.

“Reinkarnasiya” layihəsi çərçivəsində paytaxtın bir sıra muzeylərində sərgilərin təşkil edildiyini söyləyən nazir layihənin budəfəki mövzusunun Qobustana həsr edilməsinin təqdirəlayiq olduğunu dedi. Bildirdi ki, Rəssamlar İttifaqı üzvlərinin bir araya gələrək ölkə muzeyləri və qoruqlarında qorunan tarixi yaddaş və ənənəvi irsimizi müasir insana və modern sənətə təqdim etməsi önəmli addımdır: “Bu il Azərbaycan tarixi memarlıq sənəti üçün, bütün bu sahədə çalışan insanlar üçün çox önəmli bir ildir. Ölkəmizin tarixində ilk dəfə





Birinci vitse-prezident Mehriban xanım Əliyevanın səyləri nəticəsində UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası Bakıda keçiriləcək. Bu beynəlxalq tədbirdə dünyanın 200-dək ölkəsindən 3 mindən artıq nümayəndənin iştirakı gözlənilir. Tədbirə qatılacaq hər bir nümayəndə heyəti öz ölkəsinin tarixi-mədəni yerlərini təşkilatın Dünya İrs Siyahısına salınması üçün müzakirələr aparacaq. Bizim bu siyahıya daxil olan abidələrimiz var. Onların bəşəriyyət tərəfindən qorunması xalqımızın yaratdığı mirasa böyük ehtiramın



göstəricisidir. Düşünürəm ki, sərginin məhz Novruz bayramı ərəfəsində təşkili təsadüfi deyil. Bu gün Yel çərşənbəsini qeyd edirik. Bu sərgi vasitəsilə də sanki Qobustan qayalarına sığınmış minilliklərin ruhunun əsintisi bizə çatmış olur”.

Sərginin təşkilində zəhməti olan hər kəsə minnətdarlıq edən nazir, mədəniyyət və incəsənət sahəsinə göstərilən dəstəyə görə mədəniyyət ictimaiyyəti adından Prezident İlham Əliyevə təşəkkürünü bildirdi. Vurğuladı ki, mədəniyyət siyasəti, bu sahədə çalışan insanlara diqqət və qayğı durmadan artır. Xüsusən son günlər dövlət başçısının imzaladığı sərəncamlar tarixi önəm daşıyır. Qədim tarixə əsaslanan Azərbaycan mədəniyyəti özünün yeni inkişaf mərhələsini yaşamaqdadır.

Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov da sərginin əhəmiyyətindən danışaraq belə layihələrin davamlı olmasının vacibliyini qeyd etdi.

Əməkdar incəsənət xadimləri Rafiq Kərimov, Ziyadxan Əliyev və sərgidə əsərləri nümayiş olunan rəssamlar çıxış edərək layihə ilə bağlı fikirlərini bölüşdülər. Müəlliflər bu mövzuda bundan sonra da silsilə nümunələr yaradacaqlarını dedilər. Bildirdilər ki, ruhun qayıdışı, yenidən doğuluşu olan reinkarnasiyanın incəsənətdə təzahürü maraqlı mövzu kimi daim diqqət mərkəzində saxlanılacaq.

Sonra qonaqlar rəssamlar Eldar Babazadə, Elşən Qaraca, Fatimə Ağayeva, Səidə Musayeva və başqalarının fərqli üslub və texnikalarda ərsəyə gətirdikləri işlərinə tamaşa etdilər. Sərgi martın 14-dək davam edəcək.

**HƏMİDƏ**

# Nəsiminin söz mehi İstanbulda da əsdi

Xəbər verdiyimiz kimi, 2019-cu il ölkəmizdə “Nəsimi ili” kimi qeyd olunmaqla bərabər, həmçinin TÜRKSOY təşkilatı tərəfindən Azərbaycanın böyük mütəfəkkir şairinin xatirəsinə ehtiram olaraq “Nəsimini anma ili” elan edilib. Bu münasibətlə ilboyu türkdilli ölkələrdə tədbirlər keçiriləcək. “Nəsimi ili”nin rəsmi açılışı martın 6-da Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Kitabxanası və TÜRKSOY-un təşkilatçılığı ilə qurumun Ankaradakı qərargahında gerçəkləşmiş, daha sonra Türkiyənin Prezident Simfonik Orkestrinin iştirakı ilə konsert proqramı təqdim edilmişdi.

Ertəsi gün, martın 7-də “Nəsimi ili” tədbirləri İstanbulda, Türk Ədəbiyyat Vəqfində davam edib.

Vəqfin rəhbəri Serhat Kabaklı çıxış edərək böyük söz ustadı Nəsimiyə həsr olunmuş tədbirin əhəmiyyətindən söz açıb. Bildirib ki, belə tədbirlər iki qardaş ölkənin mədəni yaxınlaşmasına töhfədir.

TÜRKSOY-un baş katibinin müavini, professor Fırat Purtaş çıxışında Nəsimi yaradıcılığının nəinki türk dünyasında, ümumiyyətlə, bəşəriyyət üçün dərin məna kəsb etdiyini qeyd edib. Vurğulanıb ki, Nəsiminin yaradıcılığı millətlər və xalqlar arasında təmas nöqtələrindən biridir.

Tədbirin reallaşmasında əməyi keçən hər kəsə minnətdarlığını bildirən Azərbaycanın mədəniyyət naziri Əbülfəs Qarayev dəyərlərimizi yaşatmaq baxımından belə layihələrin önəmini qeyd edib.

Nazir İmadəddin Nəsimi yaradıcılığının dünyada tanınması, adının əbədiləşdirilməsi, əsərlərinin araşdırılması və kütləvi şəkildə nəşr edilməsinin ulu öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu diqqətə çatdırıb. Qeyd edilib ki, Nəsiminin 600 illiyi dövlət səviyyəsində ötən əsrin 70-ci illərində ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə qeyd edilib, həmçinin tarixdə ilk dəfə UNESCO tərəfindən bir Azərbaycan şairinin yubileyi keçirilib.

Bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini deyən nazir söyləyib ki, Azərbaycanda görkəmli şəxsiyyətlərin adının uca tutulması istiqamətində mühüm addımlar atılır. Nəsimi yaradıcılığının dünənimiz və bu günümüz üçün birləşdirici dəyər olduğunu deyən Əbülfəs Qarayev Bakının mərkəzi rayonlarından birinin şairin






adını daşıdığını, paytaxtımızda möhtəşəm abidəsinin ucaldığını, adının Azərbaycan Milli Elmlər Akademiyasının Dilçilik İnstitutuna verildiyini xüsusi vurğulayıb.

Azərbaycanda Atatürk Mərkəzinin rəhbəri, akademik Nizami Cəfərov çıxış edərək Azərbaycan poeziyasının və ədəbi dilinin inkişafında mühüm bir mərhələ təşkil edən Nəsimi yaradıcılığından söz açıb. Akademik şairin yaradıcılığının xüsusilə Azərbaycan türkcəsinin tarixi inkişafını öyrənmək baxımından müstəsna dəyərə malik olduğunu, böyük mütəfəkkirin altı əsr öncə yaşayıb-yaratmasına baxmayaraq, yazdığı əsərlərinin ana dilimizi və bədii sözümüzü zirvələrə qaldırdığını söyləyib. Dövlətimiz tərəfindən Nəsimi irsinin layiqincə qiymətləndirildiyini qeyd edən N.Cəfərov 2017-ci ildə UNESCO-nun baş qərargahında şairin vəfatının 600 illiyinin qeyd olunmasını, 2018-ci ildə Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Bakıda, Şamaxıda, habelə Moskvada Nəsimiyə həsr olunmuş şeir, incəsənət, mənəviyyat festivalının keçirilməsini və bu ilin Prezident İlham Əliyev tərəfindən “Nəsimi ili” elan edilməsini şairin yaradıcılığına ehtiramın göstəricisi kimi dəyərləndirib.

Nəsiminin yaradıcılığından danışan Milli Kitabxananın direktoru Kərim Tahirov şairin Azərbaycanda fəlsəfi poeziyanın əsasını qoyanlardan biri olduğunu, ana dilində gözəl şeirlər yazdığını və buna görə də şeirlərinin dillər əzbəri olduğunu deyib.

Türkiyəli professorlar Esat Harmancı, Nusret Gedik söz sənətinin qiymətli incilərini meydana gətirmiş mütəfəkkir şairin ümumtürk ədəbiyyatına töhfələr verdiyini, Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoyduğunu söyləyiblər.

Tədbir Nəsimi yaradıcılığının fəlsəfəsinə həsr olunmuş panel iclası ilə davam edib.

Sonra xanəndə, Əməkdar artist Feyruz Səxavət, tarzən, Əməkdar artist Əliağa Sədiyev və kamança ifaçısı Xəyyam Məmmədovun iştirakı ilə konsert proqramı təqdim edilib.

Sonda tədbir iştirakçıları şairin həyat və yaradıcılığından bəhs edən kitab sərgisinə baxıblar.

**Mehparə SULTANOVA**

# Mədəniyyət işçilərinin iştirakı ilə konfrans

Prezident İlham Əliyevin Hüseyn Bozalqanlı adına Azərbaycan Aşıq Sənəti Muzeyi binasının tikintisi ilə bağlı tədbirlər haqqında martın 6-da imzaladığı sərəncam Ağstafa Regional Mədəniyyət İdarəsini əhatə edən Ağstafa, Tovuz və Qazax rayonlarının mədəniyyət müəssisələri tərəfindən sevinclə qarşılanıb.

Bu məqsədlə Ağstafa rayon Mədəniyyət Mərkəzində regional idarənin müəssisələrini təmsil edən əməkdaşların iştirakı ilə konfrans keçirilib.

Regional idarənin rəisi Vüqar Qədirov dövlət başçısının sərəncamının mədəniyyətimizə, aşıq sənətinə göstərilən diqqət və qayğının daha bir nümunəsi olduğunu vurğulayıb.

Regional idarənin rəis müavini Gülgün Kərimov, idarənin Tovuz rayonu üzrə nümayəndəsi Adil Həsənov, Tovuz rayonundakı Hüseyn Bozalqanlı adına Azərbaycan Aşıq Sənəti Muzeyinin direktoru Gülbəniz Cəfərova, Qazax rayon Çaylı kənd Folklor evinin müdiri Məhəmmədəli Məşədiyev, Tovuz rayon MKS-nin filial müdiri Qurban Nağıyev və digər çıxış edənlər dövlət başçısının diqqət və qayğısının mədəni inkişafa böyük stimul verdiyini bildiriblər.

Sonda Ağstafa Regional Mədəniyyət İdarəsini əhatə edən mədəniyyət müəssisələrinin kollektivləri adından Prezident İlham Əliyevə müraciət qəbul edilib.

# Florensiyada ölkəmizin mədəni irsindən söhbət açılıb

İtaliyanın Romualdo Del Bianco Fondunun təşkilatçılığı ilə Florensiya şəhərində keçirilən “Həyat sülhün qurucusu kimi - 2019” adlı beynəlxalq simpoziumda Azərbaycan Turizm və Menecment Universitetinin (ATMU) rektoru İlham Mədətov da iştirak edib.

Tədbir “Mədəni irs”, “Destinasiya menecmenti”, “Şəhər və ərazilərin idarə olunması” mövzularında mütəxəssislər səviyyəsində müzakirə, məlumat və faydalı təcrübə mübadiləsinin aparılması məqsədilə təşkil olunub.

ATMU-dan bildirilib ki, tədbirdə rektor İlham Mədətov “Azərbaycan Respublikasında mədəni irs: mövcud vəziyyət və yeni imkanlar” mövzusunda məruzə-təqdimatla çıxış edib.

Səfər çərçivəsində İ.Mədətov İtaliyada fəaliyyət göstərən bir sıra təşkilat və təhsil müəssisələrinin nümayəndələri ilə görüşüb. Görüşlərdə mədəni irslə bağlı beynəlxalq tədbirlər, təhsil və mədəni irs bağlılığının elmi əsaslarla əlaqələndirilməsi zamanın tələblərindən biri kimi dəyərləndirilib.

# Milli teatr günündə teatra ekskursiya

10 mart – Milli teatr günü münasibətilə Sumqayıt şəhər 4 saylı Diyarşünaslıq klubunun müəllim və şagird kollektivinin Sumqayıt Dövlət Dram Teatrına ekskursiyası təşkil edilib.

Qrim otağı, butafor və kostyum sexləri, rəssam emalatxanası ilə tanış olan ekskursiya iştirakçılarına Sumqayıt Dövlət Dram Teatrının 50 illik fəaliyyətini əks etdirən sərgi-afişa haqqında məlumat verilib.

Sonra tamaşa zalında teatrın direktoru Mübariz Həmidov və yaradıcı kollektivin üzvləri çıxış edərək bayram münasibətilə teatr sahəsində çalışanları



və tamaşaçıları təbrik ediblər. Çıxışlar zamanı mədəniyyət və incəsənət sahəsinə göstərilən dövlət dəstəyindən danışılıb, teatrın keçdiyi zəngin yaradıcılıq yolundan söhbət açılıb.

Sonda M.F.Axundzadənin “Müsyö Jordan və dərviş Məstəli şah” komediyası göstərilib.

Qeyd edək ki, bu əsər Sumqayıt teatrının səhnəsində ilk dəfə 1969-cu ildə Xalq artisti Cənnət Səlimovanın quruluşunda səhnələşdirilib. Hazırkı quruluşun müəllifi isə Xalq artisti Firudin Məhərrəmovdur.

# Şəki “ASAN Həyat”da Bahar festivalı

Şəki “ASAN Həyat” kompleksində xalqımızın qədim adət-ənənələrindən sayılan Novruz bayramı münasibətilə təşkil edilən festival zəngin proqramı ilə yerli sakinlərə, eləcə də qurumun xidmətlərindən yararlanmaq üçün ətraf rayonlardan gələn vətəndaşlara unudulmaz anlar yaşadıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin “İnnovasiyalar Mərkəzi”nin Şəki Şəhər İcra Hakimiyyəti ilə birgə təşkil etdiyi Bahar festivalı martın 9-dan 12-dək davam edib.

Festivalın məqsədi xalqımızın qədim dəyərlərindən olan Novruz bayramının adət-ənə-



nələrini yaşatmaq və gələcək nəsillərə ötürmək, insanların bayram əhval-ruhiyyəsini artırmaq, bölgələrdə yaşayan müxtəlif xalqların milli mədəniyyətini, musiqisini, folklorunu, mətbəxini nümayiş etdirmək və tanıtmaqdır.

“ASAN Həyat” kompleksinin həyətində sərgilər, yerli şirkətlərin məhsullarından ibarət yarmarkalar təşkil edilib, milli personajların iştirakı ilə bayram tamaşaları, konsert proqramları təqdim olunub. Pəhləvan və kəndirbazların oyunları, Kosa və Keçəlin duzlu-məzəli zarafatları, idmançıların çıxışları festival iştirakçılarına xoş ovqat bəxş edib.

Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov və “ASAN xidmət”in tabeliyində olan “İnnovasiyalar Mərkəzi” MMC-nin direktoru Tağı Tağızadə festival iştirakçılarını qarşıdan gələn bayram münasibətilə təbrik edib, onlara xoş əhval-ruhiyyə arzulayıblar.

Bayram tədbirində Şəki Regional Mədəniyyət İdarəsinin tabeliyində fəaliyyət göstərən Şəki Uşaq incəsənət məktəbinin, 2, 3 və 4 saylı uşaq musiqi məktəblərinin, Balakən, Zaqatala, Qax rayonlarının rəqs və folklor kollektivləri rəngarəng konsert proqramı ilə çıxış ediblər. Paytaxtdan dəvət olunan müğənnilər Gülüstan Əliyeva, Yaşar Cəlilov, Zemfira İbrahimova, Ülkər Yaşarqızı və Nurcanın çıxışları hər kəsdə bayram ovqatı yaradıb.

# Eksperimental tamaşalar festivalından son qeydlər

## Səhnədə dolğunluq olarsa…

*əvvəli səh. 1-də*

Martın 8-də yenidən festivalın əsas məkanında – Teatr Xadimləri İttifaqındayıq. Şuşa Dövlət Musiqili Dram Teatrının aktyorları – Əməkdar artist Nazir Rüstəmov və Bahar Abdullayeva Miro Harvanın əsəri əsasında “Aktyor əbədiyyətə qovuşanda” tamaşası ilə çıxış edirlər. Tamaşanın quruluşçu rejissoru da elə Nazir müəllimdir. Bu tamaşa da



zamanında diqqətimizdən yayınmayıb: qəzetimizin 18 aprel 2018-ci il tarixli sayında “Arzulanmayan aktyor taleyi səhnəyə çıxanda” deyərək onun seyrindən duyduqlarımızı oxucularla paylaşmışıq.

Axşam isə Vaqif İbrahimoğlunun 70 illik yubileyinə həsr olunmuş “Boş məkanın dolğunluğu 2” Eksperimental tamaşalar festivalının tək qonağı, həm də festivalın müsabiqədənkənar iştirakçısı – L.Mesxişvili adına Kutaisi Dövlət Professional Dram Teatrı “Duplet” tamaşası ilə qonağımızdır. Gürcü teatrı ilə hər görüşün sənət bayramı olduğunu, üstəlik, bu tamaşanın qadınlar bayramında oynanıldığını nəzərə alsaq, “Duplet” tamaşasını teatrsevər xanımlara hədiyyə olaraq da qəbul edə bilərik. Rejissor K.Abaşidze V.Havelin “Etiraz” və H.Pinterin “Yola çıxmazdan öncə” adlı iki birhissəli, yəni əslində struktur və məna baxımına görə oxşar pyeslərini birləşdirərək “Duplet” adlı tamaşa qurub. İki aktyor D.Roinişvili və Z.Svanadze müstəntiq və müttəhim olaraq antraktda yerlərini dəyişirlər. Gerçəkdən, kimin kimi nəyə görə ittiham etməkdə haqlı olduğunu öncədən kim bilir ki?

* * *

Nəhayət, son gün. Günorta Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının kiçik səhnəsində V.Lyusun “Zelda” əsəri əsasında “İstədiyim kimi yaşayıram” (quruluşçu rejissor - Xalq artisti Ağakişi Kazımov, ifaçı - Əməkdar artist Mehriban Abdullayeva) monotamaşasını seyr edirik, axşam yenə Akademik Milli Dram Teatrındayıq. Kamal Abdullanın «Bir, iki - bizimki!” tamaşasını izləyirik. Əlif Cahangirlinin bu tamaşasında Əməkdar artist Ayşad Məmmədov, aktyorlar İlahə Həsənova, Ziya Ağayev, Xədicə Novruzlu və Canəli Canəliyev çıxış edirlər. Festivalın sonuncu tamaşalarına baxmaqla onların barəsində ötən il qəzetimizdə iki dəfə (30.03.2018 və 22.06.2018) bölüşdüyümüz təəssüratları təzələyirik.

* * *

Festival yekunlaşır. Artıq ekspert olaraq bizim də bəyəndiklərimiz var. Düzdür, festivalın öz münsiflər heyəti var deyə, bizim rəyimiz həlledici deyil, amma hər halda hər kəs öz bəyəndiyini qaliblər sırasında görmək istəyir. Seçilənlər Milli teatr günündə məlum olacaq.

* * *

…Neçə illərdir ki, Milli teatr gününün Aktyor evinin böyük salonunda keçirildiyi yadıma gəlmir. Amma budəfəki bayram şöləni həmişəkinə bənzəməz. Necə olsa, festival iştirakçıları da buradadır, hələ desəniz, ittifaqın keçirdiyi ən yaxşı afişa və plakat müsabiqəsi qalibləri də, onları dəstəkləmək üçün gələnlər də, dəvətli qonaqlar da…

Azərbaycan Teatr Xadimləri İttifaqının sədri, Xalq artisti, professor Azər Paşa Nemətov hamını əlamətdar gün münasibətilə təbrik edir, bu günün tarixindən, Azərbaycan teatrını qarşıda gözləyən perspektivdən danışır. Sədr müavini, Xalq artisti Hacı İsmayılovun aparıcılığı ilə keçən təltif mərasimi ürəkaçan perspektivlərin işartıları duyulan təbrik dolu nitqin maraqlı davamı olur.



Ənənəvi olaraq, öncə ittifaqın fəxri fərmanları və “Sənətkar” medalı builki sahiblərini tapırlar.

Şuşa Dövlət Musiqili Dram Teatrının baş rejissoru, Əməkdar artist Loğman Kərimov, Akademik Milli Dram Teatrının rejissor assistenti Dilbər İsmayılova, Gəncə Dövlət Dram Teatrının aktyoru, Xalq artisti Məmmədəli Balayev, Dövlət Teatr Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Sevinc Mikayılova, Mədəniyyət və İncəsənət Universitetinin dosenti, Əməkdar artist Azad Şükürov, “Musiqi dünyası” jurnalının baş redaktoru, Əməkdar incəsənət xadimi Tariyel Məmmədov və Milli Dram Teatrının aktyoru, Əməkdar artist Aslan Şirinov fəxri fərmanla, xalq artistləri Firəngiz Mütəllimova, Qabil Quliyev və Valeh Kərimov, Əməkdar artist İntiqam Soltan, tanınmış bəstəkar Azər Rzayev (vəfatından sonra) “Sənətkar” medalı ilə təltif edilirlər.

Teatr Xadimləri İttifaqının katibi, Xalq artisti Rafiq Əliyev afişa və plakat müsabiqəsi barədə danışarkən qeyd edir ki, münsiflər heyəti bütün gənc rəssamları iştiraka görə diplomla təltif etsə də, onlardan üçünü mükafata layiq bilib. Beləcə, Rizvan Ələsgər III yerə, Elvin Şirinov II yerə, Reyhan Aslanova da I yerə layiq görülüblər.

İdman yarışları ilə bağlı “əsas məsələ qələbə yox, iştirakdır” deyimi teatr festivalının iştirakçıları üçün də keçərlidir. Belə ki, festivala qatılmış 18 tamaşanın hamısının yaradıcı kollektivi fəxri fərmanla təltif edilir. Salon isə nominasiyalar üzrə qaliblərin adlarını eşitmək üçün səbirsizlənir.

Əməkdar artist Gülşad Baxşıyeva, xalq artistləri Məbud Məhərrəmov və Lüdmila Duxovnaya “Fəxri iştirakçı” kimi fərqləndirilirlər. “Tələbə tamaşasında ən yaxşı aktyor ifası”na görə ADMİU-nun tələbəsi Rəhimə Abdinova (K.Abdulla: “Unutmağa kimsə yox” (Əntər), kurs rəhbəri – Yaqut Paşazadə), tələbələrin “Qara oyun”u (kurs rəhbəri – Məmmədsəfa Həsənov) «Ən yaxşı tələbə tamaşası», aktyor Azər Aydəmirov (İ.Netanyahu: “Mənə axtarışında” tamaşası) uğurlu debütünə görə “Debüt” diplomlarına layiq görüldülər. Ən yaxşı aktyor olaraq isə münsiflər üç aktyorun ifasını dəyərləndirdilər: “Yuğ” teatrından Qasım Nağı “Quş dili” tamaşasındakı Bağban, Qurban Məsimov müstəqil təqdim edilmiş “Açıq dənizdə” tamaşasındakı Gonbul və Əməkdar artist Mehriban Xanlarova Milli Dram Teatrının “Manqurt” tamaşasındakı Nayman ana rollarına görə.

Ən vacib məqam, təbii ki, qalib tamaşaların adlarının açıqlanması idi: münsiflərin qərarı ilə III yerə iki tamaşa – “Səmavi” və “Qara adam” monotamaşaları, II yerə müstəqil “Açıq dənizdə” tamaşası, I yerə isə Milli Dram Teatrının “Bir, iki - bizimki!” tamaşası layiq görüldü.

Beləcə, Azərbaycan peşəkar milli teatrı 146 yaşını alqışlar, sevinc nidaları, təbriklər, əlbəttə ki, gələcəyə xoş ümidlər və ruh yüksəkliyi notları ilə qeyd etdi.

* * *

Yazıya P.S. sayıla biləcək bu qeydləri deməyə də bilərdik. Lakin “Boş məkanın dolğunluğu 2” Eksperimental tamaşalar festivalının ekspert qrupunun üzvü kimi növbəti festivalı, ya da tamam başqa məramlı festivalı necə görmək istədiyimizi yazmağa ehtiyac duydum. Əslində, onların bəzisini bu festivalda da gerçəkləşdirmək olardı. Tam on gün teatrşünasları və teatr yazarlarını bir araya gətirərək, müzakirələr keçirən teatrşünas Vidadi Qafarovun bağlanış mərasimində səhnəyə çıxaraq söz deməsini, bundan əvvəl isə hörmətli münsiflərin öz qərarlarını dəqiqləşdirərkən ekspertlərin də rəyinin nəzərə alınmasını. Nəzərə almaq demişkən, festival günlərində tamaşalararası fasilələrin uzunluğu yorucu idi. Onsuz da teatrşünaslar da, festivalı izləyən jurnalistlər də günün ikinci yarısını festivala ayırmışdılar. Odur ki, tamaşalararası vaxtı qısaltmaqla, müzakirələrin müddətini uzatmaq və beləliklə də, zamanı iştirakçılar üçün daha faydalı keçirmək mümkün olardı.

İkinci festival artıq dünəndə qalıb. Üzümüz də, yolumuz da sabaha doğrudur. Gələcək festivallara gəlincə, onları ölkənin iş adamlarının, böyük şirkətlərinin dəstəklədiyini görmək, keçirildiyi şəhərin küçələrində, telekanallarında bolluca reklamına şahid olmaq istərdik!..

Bax, o zaman adının nə olması fərq etmədən nəinki festival, hətta gündəlik həyatını yaşayan teatrlarımızın salonu hər zaman dolu olacaq...

Milli teatrın dolğun həyatını seyr etmək istəyilə

**Gülcahan MİRMƏMMƏD**

## Milli teatr günündə “Ər və arvad” nümayiş olunub

Peşəkar milli teatrımızın yaranmasının 146-cı ildönümü münasibətilə Azərbaycan Dövlət Musiqili Teatrında Üzeyir Hacıbəylinin “Ər və arvad” musiqili komediyası təqdim olunub.

Tamaşanın nümayişindən öncə çıxış edən teatrın ədəbi hissə müdiri, Əməkdar mədəniyyət işçisi Telli Pənahqızı sənət ocağının yaradıcı fəaliyyəti, yeni tamaşalar haqqında məlumat verib. Vurğulanıb ki, Azərbaycanda musiqili teatrın əsası 1910-cu ildə böyük Üzeyir Hacıbəylinin “Ər və arvad” ikihissəli musiqili komediyası ilə qoyulub. Milli teatr günündə bu səhnə əsəri bir daha sənətsevərlərə təqdim olunur.

T.Pənahqızı Milli teatr günü ərəfəsində Dövlət Musiqili Teatrına “akademik” statusun verilməsinə görə dövlət başçısına dərin təşəkkürünü bildirib.

Sonra “Ər və arvad” musiqili komediyası nümayiş olunub. Tamaşada rolları xalq artistləri Afaq Bəşirqızı, İlham Namiq Kamal, əməkdar artistlər Ələkbər Əliyev, Əkbər Əlizadə, aktyorlar Gülcahan Salamova, Ağaxan Şərifov, Əliməmməd Novruzov, Rəsmiyyə Nurməmmədova, Hüseyn Əlili ifa edib.

Maraqla qarşılanan tamaşanı mədəniyyət naziri Əbülfəs Qarayev də izləyib.

Sonda nazir yaradıcı kollektivin üzvləri ilə görüşüb, onları həm bu əlamətdar gün münasibətilə, həm də sənət ocağına yeni “akademik” statusun verilməsi münasibətilə təbrik edib. Nazir teatr sahəsində görülən işlər və yeniliklərdən danışıb: “Azərbaycanda peşəkar milli teatrın yaranmasından 146 il ötür. Eyni zamanda musiqili teatr sənətimiz 110 illik yubileyi ərəfəsindədir. Teatra Prezidentin müvafiq sərəncamı ilə “akademik” statusu verilib. Bu, kollektivin üzərinə böyük məsuliyyət qoyur. Ərsəyə gələn tamaşalar, həyata keçirilən layihələr mahiyyət və keyfiyyətcə tamaşaçıların zövqünə uyğun və yüksək səviyyədə qurulmalıdır”.

## Kuklaçıların “Kəloğlan”ı

Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı 10 mart – Milli teatr günündə də premyera ilə balacaların görüşünə gəldi.

Teatr bayramını həm yaradıcı heyət, həm də tamaşaçılar üçün yaddaqalan etmək üçün tamaşadan öncə milli teatr tariximiz, teatrın keçdiyi inkişaf yolu barədə çıxışlar oldu.

Sonra tamaşaçılara məşhur türk xalq nağıllarından “Kəloğlan masalları” əsasında hazırlanan tamaşa təqdim olundu.

Səhnə işində tamaşaçılar tarixi qədimlərə gedib çıxan milli gərdək oyunu, ulu şaman ifası, klassik kukla sənətinin çağdaş tərtibat (işıq və dekor) və səs çalarlarını birlikdə izlədilər.

Səhnələşdirəni və quruluşçu rejissoru teatrın baş rejissoru Qurban Məsimov, quruluşçu rəssamı Əfşan Əsədova olan “Kəloğlan”da rolları teatrın aparıcı aktyorları Cavid İbrahimov, Aygül Ağayeva, Vüsal Hüseynov, Araz Həsənli ifa edirlər.

# “12-ci gecə”nin ertəsi

## və ya hər nə istəsək?!



Öncə onu qeyd edim ki, müəllif və rejissorun haqqında danışacağımız əsər-tamaşaya adına əlavə etdiyi “hər nə istəsəniz” özlüyündə səhnə işinə baxan və baxdığını analiz edən hər kəsə sərbəstlik verir. Yəni seçim müxtəlifliyi və sərbəstliyi özü də bir üstünlükdür. Biz də yazıda bunu nəzərə almağa çalışacağıq...

Keçək əsas mətləbə. Ötən həftə Akademik Milli Dram Teatrının səhnəsində “12-ci gecə və yaxud hər nə istəsəniz” tamaşasının premyerası oynanıldı. Dünyanın müxtəlif teatrlarında ən müxtəlif yozumlarda səhnə həlli yaşayan bu beşpərdəli komediya Uilyam Şekspirin alternativ adı olan yeganə komediyasıdır. Müəllifin yaşadığı dövrdə qeyd olunan Yeni il şənliklərinin 12-ci günü ilə səsləşən komediya elə o şənliklərdəki kimi “başayaq”dır. Təbii ki, bu fərqlilik əsərə müraciət edənlərə sərbəstlik, səhnədə eksperiment etmək imkanı verir və quruluş müəllifi də bundan ustalıqla istifadə etdi.

Tənqidçilərin “yanlışlıqlar komediyası” adlandırdığı əsərdə hadisələr müəllifin uydurduğu İlliria krallığında baş verir. İnsanların qiyafə kimi cild dəyişdirdiyi, qadınların kişi, kişilərin qadın qılığına girdiyi, bir-birinə aşiq olan insanların bu qarmaqarışıqlığa çalışdığı və sonda hər şeyin müsbət sonluqla, həm də hər kəsin istədiyi kimi bitdiyi əsərdir. Təlxəklər, sərxoşlar, fırıldaqçılar, müftəxorlar, dəlilər, ağıllılar, axmaqlar, zadəganlar və daha neçə-neçə fərdin oyun içində oyunu olan tamaşanın səhnə həlli uğurlu alınıb.

Səhnə əsərinin quruluşçu rejissoru, rəssamı və musiqi tərtibatçısı Xalq artisti Azər Paşa Nemətov, rejissoru Anar Sadıqov, video-vizual rəssamları Fərid Əhmədov və Azər Süleymanovdur. Klassik nümunəyə verilən müasir həll maraqlı alınıb. Dekorasiyası monitorlar vasitəsilə dəyişən tamaşada texniki həll baxımından müəyyən estetik, elə faktiki çatışmazlıqlar da var idi və bunu detallar ilə izah etmək zaman istəyir. Məsələn, monitorda dənizin dibinə yuvarlanan qızın xilas edilməsi. Qız da, onu sudan çıxaran da qupquru idi. Onları isladıb səhnəyə çıxarmayacaqdınızsa (heç olmasa, saç-başlarında islaqlıq effekti yaratmaq olardı), niyə xilaskar matros çəkməsini çıxarıb suyunu boşaldırmış kimi edir? Üstəlik, ayaqqabısından düşən balığı ora-bura çırpıb (!) arxaya tullayır. Texniki həldən danışmışkən, təsvirlərin mizanlara görə bir-birini izləməsində müəyyən uyarsızlıqlar (malikanə təsvirindən bakerlərin yarışının vizual məkan təsvirlərinədək) da diqqətə çarpırdı. Video-vizual rəssamlar bu qəbildən bəzi detalları unutmuş, ya da texniki baxımdan mümkünsüz hesab etmişdilər.

Klassika ilə müasirliyin vəhdətinə cəhd olunduğu tamaşada aktyorların geyimlərində həm Şekspir dövrünün, həm də çağımızın geyimlərinə müraciət edilib və bu gözəl alınıb.

Mizanlara və plastik həllə gəlincə, aktyoru artıq manevrdən azad etməklə enerjisini “bədən dili”ni işlətməyə yönləndirməsi uğurlu düşünülüb. Sadəcə, səhnədə moto-manevrlər bir az artıq, uzun alınmışdı.



Aktyor oyunu... Səhnə əsərində əməkdar artistlər Elşən Rüstəmov, Anar Heybətov, Məsmə Aslanqızı, Ayşad Məmmədov, Aslan Şirin, aktyorlar Elnar Qarayev, Ziya Ağayev, Vüsal Mustafayev, Rəşad Bəxtiyarov, İlahə Həsənova, Nigar Güləhmədova, Xədicə Novruzlu və Əlif Cahangirov çıxış edirdilər.

Video-çarx vasitəsilə özünün xoreoqrafik imkanlarını nümayiş etdirən Keşişdən (Əlif Cahangirli) başqa digər obrazlar üzərində dayanmaq gərək.

Əsərin qəhrəmanı Orisionu oynayan Elşən Rüstəmov sadəlövh, çarəsiz aşiq obrazında mizandan zərrəcə kənara çıxmayan, rejissorun təqdim etdiyini tamaşaçıya eynilə qaytaran aktyor oyunu göstərdi və qəhrəmanının ruh halını, düşdüyü vəziyyətlərə sadəlövh, biçarə, cəsarətsizliyini rahat şəkildə nümayiş etdirə bildi.

Oliviya (Məsmə Aslanqızı) gözəl və cazibədar, sevən və sevilən qadındır. Oyun-ifa manevrləri, mizandan-mizana, dialoqdan-dialoqa səs-jest-mimikaları bir tamlıq yaratsa da, sanki səhnənin ortasında benefisini oynayan aktrisa var idi. Onun tərəf-müqabili Sebastianda (Anar Heybətov) sevgili vüsalı ilə alışan məqsədli gənclə bərabər meydanda sanki milli dərd sərxoşu Kefli İsgəndərdən də cizgilər gördük.

Meydan deyiriksə, alqışlarınızla Mariyanı (Nigar Güləhmədova) mərkəzə “dəvət edək”. Viola (İlahə Həsənova) oyunu, manevrləri, birbaşa gedişləri ilə mükəmməl idi, bircə səsinə güc gələ bilmədi. Ser Endryu Egüçikin (Ziya Ağayev) sadəlövh aşiqliyindən, asanlıqla istismar olunmasından danışa bilərik. Tamaşada aktyor kimi bacarıqlarının cüzi hissəsini göstərməyi kifayət etdi və o, obrazını mərkəzə çəkə bildi. Bundan əlavə, od-alov olub səhnəni “yandıran”, epizodlarda belə tamaşaçıya məni gör demədən gözə dəyən Culiya (Xədicə Novruzlu) və təlxək Fabian (Vüsal Mustafayev) ikilisi də var. Elə nə yaxşı ki, var. Yuxarıda qeyd etdiyim hər üç aktyor çağdaş səhnə-sənət meyarlarına cavab verə biləcək gücdə olan gənclərdir.

Tamaşanın əmrə müntəzir çarəsiz aşiqi Malvolio (Aslan Şirin), sərxoş əmisi Ser Tobi Belç (Ayşad Məmmədov) isə oyunçuların öncəki oxşar obrazlarının (o cümlədən “Bəxt üzüyü”nün Hüseyni) təsirindən çıxa bilməmişdi.

Tamaşanın musiqi tərtibatını xüsusi qeyd etmək gərəkdir. Klassik musiqidən roka qədər elə zəngin və zövqlü musiqilər seçilib ki, tamaşaçı bir an belə qulağını tamaşadan ayırmır. Musiqi tərtibatından danışdıqda səhnənin hər iki tərəfində qoyulan mikrofonlar vasitəsilə (vokal üzrə repetitor Zeynəb Safina) aktyorların canlı solo ifalarını alqışlamaq lazımdır...

**Həmidə NİZAMİQIZI**

№20 (1605)
13 fevral 2019
www.medeniyyet.az

# Yaratdığı obrazlarla tamaşaçı ilə həmsöhbət olmağı bacaran sənətkar

Çox vaxt kino və teatrın sevilmə səbəbini araşdırır, həyat üçün niyə bu qədər əhəmiyyət kəsb etdiyini anlamağa çalışırıq. Cavab sadədir, bu mühüm sənət növlərini bizlərə sevdirən məhz peşəkarlardır.

Azərbaycan teatr və kino sənətində özünəməxsus dəst-xətti ilə yaddaşlarda və qəlblərdə yaşayan unudulmaz sənətkarlarımızdan biri də Xalq artisti Ağasadıq Gəraybəylidir. Onun adı milli teatr və kinomuzun inkişaf tarixi ilə sıx bağlıdır. O, hər iki sahədə milli kadrlara ehtiyacın olduğu bir vaxtda sənətə gəldi, uzun sənət ömrü yaşayaraq teatrda faciə, komik və dramatik rolları böyük məharətlə ifa etdi, kinoda maraqlı obrazlar qalereyası yaratdı.

Sənətlə bağlı belə bir fikir var. Əsl sənətkarlıq üzdə sadə görünənin alt qatdakı dərin mənasını üzə çıxarmaq məharətidir. Müəlliflərin və rejissorların ideyalarının, dərin fikirlərinin tam mənasını görkəmli aktyor A.Gəraybəylinin yaradıcılığında görmək mümkündür. Onun istər teatr, istərsə də kino obrazlarının həyat mövqeyi, amalı, düşüncəsi yaradıcılığının təfsirində xırdalığına qədər cilalanıb. O, Azərbaycan teatr sənətinin keşiyində duran sənətkarlarımızdandır. Səhnədə oynadığı rolları tamaşaçılarda sənətə qarşı məhəbbət hissi aşılayıb, yaratdığı obrazların real və yaşarı olduğuna tamaşaçını inandırıb.

Peşəkar aktyorun coşqun potensialı tanınmış kino rejissorlarımızın da diqqətindən yayınmayıb. Ona 17 bədii filmdə müxtəlif xarakterli rol həvalə olunub.

A.Gəraybəylinin kinoda debütü "Qız qalası" (1924) filmindəki həkim roludur. Film səssizdir, rol epizoddur, eyni zamanda yaradıcı heyətin böyük hissəsi başqa millətlərin nümayəndələri olduğundan, ssenari yerli adət-ənənələrə uyğunlaşdırılmadığından (ssenari müəllifi N.Breslav-Lurye, rejissor V.Ballyuzek, operator V.Lemke və s.) film uğurlu alınmayıb. 1929-cu ildə görkəmli Azərbaycan dramaturqu C.Cabbarlının ssenarisi əsasında çəkilən "Sevil" filmində aktyora əsas rollardan biri – Balaş obrazı həvalə olunur. Film səssiz olsa da, aktyorların (M.Mərdanov, İ.Orucova, Ə.Məmmədova və s.) peşəkar oyunu əsərin ekran variantını emosional və baxımlı edib. Eyni zamanda Gəraybəylinin teatr səhnəsində C.Cabbarlının bir çox əsərlərinə nəfəs verməsi ("Ədirnə fəthi"ndə Nazim paşa, "Aydın"da Dövlət bəy, "1905-ci ildə"də Salamov, General-qubernator və s.) kino obrazının yaşarı alınmasına imkan yaradıb.

Aktyorun "Fətəli xan" (1947) tarixi bioqrafik filmində oynadığı Sərdarın elçisi rolu kiçik planlı olsa da, yaddaqalandır. Personajın hiyləgər, kinli xüsusiyyətlərini mimika cizgiləri və jestləri ilə dəqiq xarakterizə edən sənətkar kiçik bir kadrda rolun mövqeyini açmağı bacarıb. O, kiçik planlı ekran obrazlarının xüsusiyyətlərini incə ştrixlərinə qədər cilalayar, rolun dar imkanı çərçivəsində belə yaradıcı potensialının çoxluğunu, daha geniş planlı, hətta aparıcı rolları məharətlə ifa etmə bacarığını anons edərdi.

Gəraybəylinin kinoda ilk böyük rolu "Bəxtiyar" kinokomediyasındakı (1955) Ağabala surətidir. Bu, tamaşaçıların obrazın həyat mövqeyinə gülümsəyərək, sevgi ilə xatırladığı bir personajdır. Bu isə o deməkdir ki, aktyor komik nüansları vəziyyət komediyasına çevirib, mənfi prototipin qeyri-normal, fərdi cəhətini təbii boyalarla, incə yumorla yaradıb. Meşşan xüsusiyyətinə görə gülüş hədəfinə çevrilən Ağabala obrazı filmin zəngin və dəyərli musiqilərinin bolluğu zəminində, məşhur müğənni, ustad sənətkar Rəşid Behbudovun möhtəşəm ifası, tanınmış aktyorların peşəkar oyunu fonunda belə filmin aparıcı qüvvəsi kimi yadda qalır. Bu mənada aktyorun ustalıqla yaratdığı kiçik planlı rolları da uğurlu və baxımlıdır.

Sənət haqqında olan maraqlı fikirlərdən biri də "Həqiqi sənətkar təkcə başının ağlı ilə deyil, həm də ürəyin ağlı ilə yaşayır" deyimidir. A.Gəraybəylinin ekran personajları da ürəyinin ağlı ilə yaratdığı rollardır. Onların hər biri sənətkarın düşüncəsinin və ürəyinin vəhdətinin məhsuludur.

O, mimika cizgiləri ilə personaja olan mövqeyini incə ştrixlərlə göstərirdi. Məsələn, görkəmli kinorejissor H.Seyidzadənin 1956-cı ildə quruluş verdiyi "O olmasın, bu olsun" kinokomediyasında aktyorun oynadığı Rüstəm bəy obrazı nə qədər iddialı, özündənrazı olsa da, filmin finalında Gülnazın yolasalma səhnəsində onun kədərli, düşüncəli, eyni zamanda ironik, təəssüf dolu ifadəylə xudahafizləşdiyini görürük. Aktyorun mövqeyindən obrazın doğru yaşam tərzinin olmadığı, qeyri-normal prinsiplərə kökləndiyi həyat mövqeyinin cılızlığı, eləcə də cəmiyyətdə gülüş hədəfinə çevrildiyi təəssüf dolu baxışıyla bildirilir. Sənət bilicisinin mənfi personajlarına olan tənqidi yanaşması nəticəsində də məntiqli gülüş komizm səviyyəsinə yüksəlir, keyfiyyətli komediya həyatın tipik inikasına çevrilir, şəxsi və ictimai qüsurları tənqid edir. Peşəkar aktyor oyunu sayəsində də əsərin uğurlu ekran təfsilatı təsirsiz qalmır.

"Qızmar günəş altında" (1957, rejissor Lətif Səfərov) filmindəki Niyaz Sərdarov obrazı qəliz və qəribə xarakterlidir. O, çay əkini zamanı quraqlıqla mübarizə aparmaqda, tarlaların suvarılması üçün lazım olan su anbarının tikilməsində, kanalın çəkilməsində, tibb məntəqəsinin bərpa olunmasında əmək adamlarına kömək etmək istəmir, hadisələrə birmənalı yanaşır. Bununla yanaşı, cəsarətsiz kolxoz sədri kimi görünən Sərdarov Eldarın və həkim Aydın Zeynalovun mərd cəhətlərini də alqışlayır. O, cəsurluğun insana yaraşan xüsusiyyət olduğunu bilir, bəyənir, özü isə ətrafdakılara qarşı biganə yanaşır. Hətta həyat yoldaşının (aktrisa Barat Şəkinskaya) aşırı həddə olan tənə və iradlarına normal, sakit münasibət bildirir. Bununla da obrazın qüsurlu cəhətlərini ifşa edir.








Ağasadıq Gəraybəyli 1897-ci ilin bir yaz günündə, martın 15-də Şamaxıda dünyaya göz açıb. Körpə yaşlarından ailəsi Bakıya köçüb. Məktəbdə oxuyarkən M.Maqomayevdən və M.Terequlovdan musiqi təhsili alıb. 1916-cı ildə Politexnik məktəbinə daxil olub. Burada C.Cabbarlı ilə dostluğunun təməli qoyulub. Tələbəlik illərində "Nicat", "Səfa" cəmiyyətlərinin teatr truppalarında epizod rollar oynayıb. 1920-ci ildə Milli Dram Teatrının yeni təşkil olunan truppasına işə götürülüb. Müəyyən fasilələrlə (1921-1932) Bakı Türk Azad Tənqid və Təbliğ Teatrında işləyib. 1925-ci ildə Bakı Türk İşçi və Kəndli Teatrı, 1927-ci ildən Türk İşçi Teatrı adlandırılan teatrın kollektivi 1933-cü ildə Gəncəyə köçüb. Gəraybəyli bir müddət Gəncədə qaldıqdan sonra yenidən Akademik Dram Teatrına qayıdıb. Ömrünün sonunadək burada çalışıb.

Aktyorun teatral fəaliyyəti, səhnə plastikasının zənginliyi, kamera qarşısında mimika cizgilərindən məharətlə istifadə etmə bacarığı rolların mövqeyini dəqiq çatdırmasına, ədəbi əsərlərin məzmununun açılmasına imkan verir. Bu isə onun həyat müşahidəsinin dəqiqliyi, mütaliəsinin zənginliyi, zamana, mühitə, hadisələrə, insanlara və müasirlərinə olan dəqiq münasibəti deməkdir. Məqamında işlətdiyi jest və frazalar isə birbaşa personajların həyat mövqeyinin açılmasına hesablanıb. Buna görə də Gəraybəylinin iştirak etdiyi filmlər bu gün də uğurlu ekran taleyini yaşayır.

A.Gəraybəyli kinoda əsasən komik rollar yaratsa da, oynadığı personajları ciddi obrazlar kimi qəbul edirik. Çünki o, rol aldığı filmlərdə komik surətlər yaratmağa yox, vəziyyətdən və xarakterdən yaranan ciddi gülüşü, məntiqli yumoru təqdim etməyə çalışıb və buna da nail olub. Bu isə aktyor texnikasının mahir bilicisi və sənət sirlərinə dərindən bələd olmaq deməkdir.

Aktyor "Məşədi İbad-80, yaxud köhnə tanışlar", "Nəvəmin nəvəsinin nəvəsi" kimi "Mozalan" satirik kinosüjetlərində canlandırdığı obrazlara da koloritli ifasıyla baxımlılıq gətirib.

Ağasadıq Gəraybəylinin ekran personajları haqqında ayrı-ayrılıqda çox danışmaq olar. Onun səhnə və ekran fəaliyyəti böyük bir tədqiqat obyekti olacaq qədər zəngindir. Hər hansı bir obraz vasitəsilə tamaşaçılarla həmsöhbət olmaq, dərdləşmək, dövrün hadisələrinə öz münasibətini bildirmək isə əsl sənətkar qüdrətidir. Bu mənada yalnız peşəkar sənət biliciləri müxtəlif həyat hekayələrinin məcmusunu vizual ədəbiyyata çevirməyi, müdrik, ibrətamiz nəsihətləri ilə həmsöhbətimiz, sevimlimiz və heç bir zaman unutmadığımız doğmamız olmağı bacarırlar. Ustad sənətkar, Xalq artisti Ağasadıq Gəraybəyli kimi...

**Şəhla ƏMİRLİ**
**kinoşünas**

# Fərman Kərimzadə –

## Öz istedadı ilə tariximizi nəsrləşdirmiş, kinolaşdırmış, rəsmləşdirmiş, xarakterik keyfiyyətlərilə ədəbi-ictimai mədəniyyətimizə parlaq rənglər qatmış sənətkar

İndiki Ermənistanın Böyük Vedi kəndində doğulmuş, 1940-larsonu deportasiyası səbəbilə "palaza bürün, elnən sürün"lüyə məhkum edilmiş bu insan ömrünün sonrakı illərini yalnız milli mənəviyyat diktəsilə yaşadı...

Çoxminli oxucularının daima yad etdiyi bu gözəl əsərlər, qeyri-adi obrazlar müəllifini bu yazı ilə onun doğum (3 mart 1937) və ölüm (17 mart 1989) ortalığında xatırlayırıq...

Yaradıcılığından bəndəniz bəhs edəcək, şəxsi və milli-mental keyfiyyətləri haqdasa "bu təpədən-dırnağa özəl-özgürlüklər daşıyıcısı"nın ömür-gün yoldaşı Xalidə xanım.

### Elə mənim sözüm də...

onun ailə üzvləri və yaxınlarının "hekayət"lərindən ayaq alır; "etalon ata", "əsil kişi", (sürətlə dəyişib-qruplaşan cəmiyyətlər arasında özünü qoruyub-saxlaya bilən) "ən köhnə kişi" və s.

Bu təyinlərin "ratifikasiya"sı üçün bircə sözün belə artıq işlənmədiyi, ağır-uğur dialoq tərəf-müqabillərindən hər birinin "bir batman balla yeyə bilmədiyi" kəlmələrin qaynadığı "Axrıncı aşırım" filmini göz-qulaq qulluğuna çəkmək kifayət! Məsələn, bir neçə kərə "Ay ev yiyəsi!" çağrısından sonra "Kimi istəyirsiz" sualına "Evin kişisini çağırarlar!" cavabı, Kərbəlayinin (neçə-neçə var-dövlət löyünlərini "...verdim" deyə sadaladıqdan sonra): "Sabah da gəlib deyəcəklər ki, namusunu da ver!" üsyanı, sovet hökumətilə ilgili: "Qorxurlar yox e, üyüdürlər!" sarkazmı (Hələ əsər variantında xaricə qaçmağa məcbur olan bir qan düşməninin ona etibar etdiyi hamilə gəlini göz bəbəyi kimi qoruyub, "-nə doğdu?", "-oğlan!", "-vayh, düşmənimin biri də artdı!" kimi epizodlar) və s.

Və bu yazımın bir qədər aşağısında toxunacağım mətləblərə nisbətdə "rəsmi" hissənin birnəfəsə təqdimi.

Bu ünlü ədib və böyük vətəndaş ibtidai təhsilini dədə-baba yurdunda almış, orta məktəbi Beyləqan rayonunun Şahsevən kəndində bitirmiş, Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində təhsil almış, İsmayıllı və Beyləqan rayonlarında orta məktəb müəllimi, rayon qəzeti redaksiyasında ədəbi işçi, şöbə müdiri, məsul katib, Moskva Kinematoqrafiya İnstitutunun (ssenari) məzunu, 1968-ci ildən Yazıçılar Birliyinin üzvü olmuş, Azərbaycan Teleradiosunda tərcüməçi, baş redaktor, "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında şöbə müdiri, Şüvəlan "Yaradıcılıq evi"nin direktoru işləmiş, "Çaldıran döyüşü", "Xudafərin körpüsü", "Təbriz namusu", "Qarlı aşırım" (bu əsəri əsasında "Axırıncı aşırım" filmi çəkilib), "Qoca qartalın ölümü" və başqa maraqlı əsərlər yazmışdır.

Bunlar tək elə qələmlə yazılmışdımı? Yox, bu əsərlər fiziki zəhmətlə bərabər, həm də kənardan edilən leqal, qeyri-leqal müdaxilələr "hesabına" mənəvi-məşəqqəti ələmlərlə yaradılmışdı!

Həyatıyla yaxından tanış olduqca, ədəbiyyata iki səhifəlik ("41 nömrəli ayaqqabı") hekayə ilə gəlmiş bu görkəmli yazıçını, bu dünyanı, göz açdığı ilin (1937!) zindananə yüküylə addımladığı qənaətinə gəlirsən. Belə bir yük altda "tarixi yaddaş"ın korşalmamasına, Azərbaycanın tarixi həqiqətlərini açа-açа, bu qədər ədəbi-bədii donlu qəhrəmanlıq səhifələri yaza bilməsinə isə heyran qalmaya bilmirsən. Elə bir dövrdə, fəsil-fəsil (filmlərində kadr-kadr) sevdirdiyi bir "vraqnarod"un dilindən "Ə, nə hökumət, hansı hökumət?! Mən belə hökumət tanımıram!" demək asanmı idi?!.

### Sağlığında...

millətçi düşüncəsi (vaxt ötdükcə, irsi) kifayət qədər "döyülmüş" bu yazıçı tənqid və mətbu səhifələrdə kifayət qədər də öyülüb. Sağlam, ədalətli araşdırmaçılar, sovetlər hakimiyyətinin cağ çağlarında yazılmış "Qarlı aşırım"da türk ordusuna açıq-aşkar ifadə edilən rəğbət və s. nüanslara görə, F.Kərimzadə yaradıcılığını 80-ci illərin sonlarında başlayan (və bütün dünyaya səs salan) milli-azadlıq hərəkatımızın bədii-mənəvi bazislərindən sayırlar. "O, içindəki göynərtisi, iztirabı, başı üstündəki tüstü-dumanıyla sanki



Ağrı dağıydı...", "Fərmanın da qəlbi, Azərbaycan sevdalısı Xudu Məmmədov kimi, milli dərd-ələm ağırlıqlarına dayana bilmədi; 1989-da gözlərini əbədi yumdu..."...

İki siyasi quruluşun – çarizm və sovetizmin aşırı anti-etnogenizm duallığına neçə-neçə sətiraltı səhifə və fəsillər ayırdığı "Qarlı aşırım"ından sonra, gözdənsalınma kompaniyasına salınmış bu ədib 10 ildən bir qədər atıq "susub". Ancaq, sən demə, bu susqunluq "çöl" üçünmüş. Evindəkilərin xatirələrinə görə, o, gecə-gündüz mütaliə edir, "siyasi qaranlıqlara gömülmüş materialların ən yaralı məqamlarını "ev üçün-ailə üçün" səsləndirir, hamı yatandan sonra işləyirmiş" (qızı). Nəhayət, yeni bir tarixi roman: "Xudafərin körpüsü". Altı il sonra (1988) 300 səhifə (və 65 min tirajda!) "Çaldıran döyüşü"...

Küllən milli, bənzərsiz xəlqi, bütün mahiyyətilə türksəl bir ömür yaşamış bu yazıçı "dost-yoldaşlıq" yaradıcılığı sarıdan da ("tost"lar da öz yerində) seçilib. Özü də tək elə Azərbaycanın yox, böyük türk dünyası areallarınca.

Amma, təbii ki, o dost-yoldaşlar içərisində ömür-gün yoldaşı –

### Xalidə xanım qədər –

yaxından-yaxını, hər an-hər günlüsü, aylar-illərlisi olmayıb:

"Çalışın, mənə onun yaradıcılıq aləmi haqda suallar verin, ailə-evcanlığı barədə yox. "Fərmanlı illərim" sorğunuza dillənsəm, hər nəfəsbaşı hönkürəcəyimlə sizi narahat edə bilərəm..."

Bu xanım niyə hönkür-hönkür ağlamasın ki, "dünyanın düz vaxtlarında" baxıb görürmüş qələm-kağız yorğunluqlarından savayı bir şikayəti olmayan bu kişini Mirzə Xəzərlə radiosöhbətinə görə illər xəstəsinə döndərdilər...

Ermənilərin Abbasqulu bəyin qəbri üstünə qır tökdükləri xəbərini eşidəndə onun uşaq kimi ağladığını görüb.

"Bir də görərdik, kimsə qapını döydü və qayıtdı ki, "tələbəyəm, atam deyib, pulun qurtarsa, get Fərman müəllimin yanına..."

Hərdən də eşidirmiş ki; "beynimdə 14 əsərin planı var". "Məsələn, N.Tusi haqda irihəcmli bir roman yazırdı. Əlyazması da var..."

Sonda da eşidəcəkmiş (və deyəcəkmiş) ki, "ömür-billah başı bir yol da ağrımamış sap-sağlam bu kişinin Tərtərdə beyninə qan sızıb...

Hərdən pəncərədən ("Azərbaycanfilm" kinostudiyası işçiləri binasından) baxırdım ki, hamı dayanıb söhbət edir, deyib-gülür, Fərman yoxdur. Dözə bilmirdim...

Oğluma dedim, evi sat, gedək burdan. Tab gətirə bilmirəm...

Mən oxuduğum Tibb məktəbində Fərmanın kəndçiləri də vardı. Tez-tez gələrdi onları görməyə. Qızlar bizi küçədə tanış etdilər. Görürdüm, hər gün məktəbin qabağında dayanıb. Elə bilirdim, rəfiqəm Gülçöhrəni istəyir. Bir dəfə mənə məktub verdi, aparıb dedim Fərman sənə məktub göndərib. Məktubu açıb görək, nə?!.

Mən bədii ədəbiyyatı çox oxuyurdum və Fərmanın yazıçı olduğunu biləndə, daha çox sevindim.

Nəysə, qardaşı, əmisi oğlanları yığışıb məni qaçırdılar İmişliyə. Atası dedi, məktəbdə oxuyan qızı qaçırıbsan, səni tutacaqlar. Amma sonra qayınatam özü gəlib bizi apardı evlərinə. Fərmanın 21, mənim 19 yaşım vardı. Toydan sonra şəhərə qayıdıb, tələbəliyimizi davam etdirdik.

"Qarlı aşırım" romanı Fərmana çox böyük şöhrət və təbii ki, pul gətirdi. Təkcə "Xudafərin körpüsü"nə görə 32 min rubl almışdı. Getdik Moskvadan mer-mebel, uşaqlara pal-paltar aldıq. Özünə bir "Jiquli" də aldı. Film çəkiləndən sonra – 1973-də bizə kinostudiyanın binasından beşotaqlı ev də verdilər. Həmin vaxt Şahmar Ələkbərovun iki qızı vardı, bölgüdə erməni ilə eyni kommunal mənzilə düşmüşdü.

Fərman rəhmətlik Adil İsgəndərova dedi, mənim evim dörd otaqlı olsun, əvəzində Şahmara ayrıca ev verin.

Səxavətdə eynilə atası Şıxəli oğlu İsmayıl kişi idi. O kişi kolxozda partkom işləyən qızına deyərmiş həyətə girməmiş ayaqqabılarını çıxar çırp, içindən həyətimizə bir buğda düşər, haramlıq olar...

İndilər də oğlumuz Əziz! Universitetdə oxuyanda əynini həmişə yuxa geyirdi. Ana ürəyim dözmürdü, deyirdim, ay bala, soyuq olar, əynini qalın elə, hər dəfə atasının "dil-üslub"unda bir bəhanə gətirərdi. Məsələ ciddiləşəndəsə qayıtdı ki, ay ana, kənddən gələn tələbə yoldaşlarım arasında dərsə pencəklə gələnlər də var, mən bu bahalı paltonu necə geyim gedim?..

Vallah şöhrət, pul, heç biri gözümdə deyildi. Tək istəyim Fərmanın cansağlığı idi.

Amma gör fələk nə saydı... Ovaxtlar hər fürsətdə aşağılandırılan bu millətin iztirablarına görə, axırda ürəyini də partlatdı..."

### Zənnimcə...

bu bir dəftər vərəqilik xatirə hesabına, ədəbi əsərlərilə öz yaradıcılıq portretini yaratmış görkəmli yazıçımızın həyat tablosu da yaradılmış oldu...

Belə...

Yəni belə ki, vəfatından otuz il keçən bu milli qanlı sənətkardan sonra tariximizi böyük istedad-ustalıqla ədəbiləşdirib-bədiiləşdirən əsərlər yaranırmı?

Söhbət qalan kitablardan gedir ha, qalın kitablardan yox...

**Tahir ABBASLI**

Bir əsərin tarixçəsi

Bəzən tarixi hadisələrin mahiyyətini isti-isti bədii-estetik süzgəcdən keçirib yaddaqalan əsər yaratmaq çətin olsa da, Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsinin başlandığı vaxtdan bu yana təsviri sənət ustaları hələ də bitməyən bu müharibəyə öz münasibətlərini bildirməkdədirlər. Hərçənd ermənilərin xalqımıza qarşı torpaq iddiasından qaynaqlanan bu problemin bədii görkəm almasının tarixi hələ XX əsrin əvvəllərinə gedib çıxır.

# “Qarabağnamə – tarixin səhifələri”

O vaxt İrəvan xanlığındakı dədə-baba torpaqlarından didərgin salınmış soydaşlarımızın Naxçıvana pənah aparmalarına görkəmli fırça ustası Bəhruz bəy Kəngərli (1892-1922) şahidlik etmişdi. Onlara imkanı çərçivəsində maddi qayğı göstərən gənc rəssam baş verənlərin tarixi-bədii sənədə çevrilməsi istiqamətində əvəzsiz iş görmüş, ağır vəziyyətdə olmuş insanların taleyinə həsr olunmuş “Qaçqınlar” adlı rəsmlər silsiləsi yaratmışdı. Geriyə baxıb onu da etiraf etməliyik ki, xalqımızın məruz qaldığı soyqırımı və deportasiyaların bədii əksi olan bu tarixi rəsmlərdən Qarabağ probleminin sonuncu dəfə alovlanarkən davakar erməni şovinizminə qarşı ifşaetmə təbliğatında istifadə edilməsi çox faydalı ola bilərdi...

Qanlı-qadalı faciələrimizə B.Kəngərli tərəfindən XX əsrin əvvəllərində tutulan “bədii güzgü”nün davamı elə həmin əsrin sonlarında oldu. 1992-ci ilin fevralında yaşanan ölçüyəgəlməz




Xocalı faciəsi hamı kimi Azərbaycanın fırça və tişə ustalarını, sözün əsl mənasında, dilə gətirdi, bir çox rəssamlar bu mövzuda silsilə əsərlər yaratdılar.

Faciədən bir il sonra Xalq rəssamı Xanlar Əhmədov yaratdığı 25 heykəltəraşlıq kompozisiyası və çoxsaylı qrafik rəsmlərlə baş verənləri yaddaqalan təsirli sənət nümunələrində əbədiləşdirdi. Onun ardınca tanınmış cizgi filmləri rəssamı Nazim Məmmədovun (1934-2004) yaratdığı əsərlər faciənin 10 illiyində Azərbaycan Milli İncəsənət Muzeyində “Xocalı harayı” adlı sərgidə nümayiş olundu. Sərgidən sonra rəssam tamaşaçıların böyük marağına səbəb olan həmin işləri muzeyə hədiyyə etdi. Tanınmış fırça ustası Vaqif Ucatayın Qarabağ müharibəsinin tükürpərdici dəhşətli anlarını əks etdirən 69 əsərdən ibarət “Bax! Gör! Unutma!” qrafik silsiləsi də baş verənləri yaddaşlara həkk edən bədii nümunələrdir.

Bu günlərdə, Xocalı faciəsinin ildönümündə Müasir İncəsənət Muzeyində ictimaiyyətə ilk dəfə təqdim olunan Xalq rəssamı, professor Arif Hüseynovun “Qarabağnamə - tarixin səhifələri” silsiləsi isə bu problemi özündə əks etdirən çox əhəmiyyətli sənət nümunəsidir. Azərbaycan xalqının uzaq-yaxın keçmişinə cəlbedici və yaddaqalan “bədii güzgü” tutan bu silsilə, say etibarilə 50 qrafik lövhədən ibarət olsa da, əslində məna-məzmun yükünə görə bütöv – bir əsər kimi baxılır...

Bu silsilənin inandırıcı tutumda gerçəkləşdirilməsi üçün Arif Hüseynov əvvəlcə Qarabağ və onu başqaları üçün gözdağına çevirən səbəblər barəsində kifayət qədər material toplamışdır. Respublikamızın tanınmış tarixçiləri, politoloqları, etnoqrafları və sənət tədqiqatçıları ilə görüşlərdən sonra nə edəcəyini bilən rəssam qarşısında duran yaradıcı vəzifənin həllinə başlamışdır.

Yaradılan hər bir əsəri rəssam düşüncəsi ilə cəmiyyət arasında körpüyə bənzədən Arif Hüseynov üç il ərzində baş-başa qaldığı Qarabağ mövzusunu – yaşanmaqda olan torpaq itkisinin ağrılarını fərdi yaradıcı təxəyyülünə bələməklə, düşmənin məkrini ifşa edə biləcək çox təsirli bədii-tarixi mənəvi qaynaq yaratmağa nail olmuşdur. Ağ-qara cizgilərdən “boylanan” bu bədii görüntülərin bənzərsiz dəyərə malik olması, onların daşıdığı qürurdoğurucu və ifşaedici tarixiliyin təkzibolunmaz faktlara əsaslanmasıdır. Bu mənada tanınmış qrafika ustasının ensiklopedik tutuma malik olan “Qarabağnamə”sini bədii duyğulandırma gücünə görə hər birimizin mübarizə himninə çevrilən, ruhumuzu qidalandıran “Qarabağ şikəstəsi” ilə müqayisə etmək olar. Belə ki, Arif Hüseynovun Azərbaycan – Qarabağ tarixinin qabarıq görünən, bəzən də az təbliğ olunan səhifələrinə tutduğu obrazlı – sərt “bədii güzgü”də yer almış düşündürücü bədii məqamlar məşhur şikəstədə olduğu kimi mübarizə ruhludur...




Daima milli mövzulara müraciət etməsi ilə fərqlənən Arif Hüseynovun yaradıcılığında yeni səhifə sayılacaq bu silsilə həm əhatəli bədii-tarixi tutumuna, həm də özünəməxsus şərhinə, bədii xüsusiyyətlərinə görə seçilir. Belə ki, say etibarilə əvvəlki silsilələrini duyulası dərəcədə üstələyən bu qrafik əsərlər məcmusu mahiyyətcə sənədli-bədii tutumludur. Rəssam bu əsərlərdə qədim Albaniya dövründən Xocalı faciəsinə qədər davam edən təzadlı tariximizə işıq salmışdır. Qarabağ tarixinə bu bədii yanaşmada demək olar ki, onu hər şey maraqlandırıb. Rəngarəng tutumlu qrafik lövhələrdə Qarabağla bağlı müxtəlif uzaq-yaxın hadisələrin, onun qədimiliyinə dəlalət edən memarlıq tikililərinin, maddi-mədəniyyət nümunələrinin, musiqiçilərin və sənətkarların yaradıcılığının əksi də bunu təsdiqləyir. Qrafik cizgilərin özünəməxsus ritmində görüntüyə gətirilən “I Pyotrun məktubu”, “Türkmənçay müqaviləsi”, “Gəncəsər monastırı”, “Alban abidələrinin erməniləşdirilməsi”, “Daşnakların “Böyük Ermənistan” xülyası”, “Güllələnmiş heykəllər”, “Qarabağ müharibələri”, “Pənahəli xan”, “Xalq musiqiçiləri”, “Kəlbəcər qadınları”, “Qarabağ atları” və s. lövhələrdə tarixi sənədlərin-həqiqətlərin rəssam təxəyyülü ilə uğurlu qovşağından ərsəyə gətirilən, Azərbaycan və ingilis dillərində yazılmış mətnlə tamamlanan təsvirlər kifayət qədər cəlbedici və yaddaqalandırlar.

Ermənilərin təcavüzkar xislətini ifşa edən bu əsərlər, yüksək bədii dəyəri ilə yanaşı, həm də tarixi əhəmiyyət daşıyır. Rəssamın hər bir kompozisiyada obrazı və yaxud abidəni, eləcə də süjeti aid olduğu dövrün müxtəlif hadisələri ilə vəhdətdə təqdim etməsi, Azərbaycan qrafika sənəti üçün yeni olmaqla bərabər, həm də bədii görüntünün daha əhatəli olmasını şərtləndirmişdir. Silsiləyə Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasında ölçüyəgəlməz xidmətləri olan dövlət və ictimai xadimlərin obrazlarının daxil edilməsi onun daşıdığı məna-məzmun yükünü daha da zənginləşdirmişdir, desək, yanılmarıq.

XXI əsrin əvvəllərində yaradılan Arif Hüseynovun “Qarabağnamə”sinin bədii tutumunu təsir miqyasına görə XX əsrin başlanğıcında Bəhruz bəy Kəngərlinin yaratdığı və böyük vətənpərvərlik nümunəsi sayıla biləcək “Qaçqınlar” silsiləsi ilə müqayisə etmək olar. Hər bir yaradıcıya şərəf gətirəcək bu dəyərləndirməyə rəğmən qətiyyətlə demək olar ki, Arif Hüseynovun bədii-tarixi “Qarabağnamə”sini, sözün əsl mənasında, yeni əsrin təsviri sənət məkanında bədii hadisə saymaq olar...



**Ziyadxan ƏLİYEV**
**Əməkdar incəsənət xadimi**

# Amansız müharibə və oğlunu tanımayan ana

(Esse)

...Çöldən gələn tükürpədici vahimə səsləri evi başına götürdü. Dəhşətli atışma başlamışdı, şəhər od içində yanırdı. Gənc ana beşikdə mışıl-mışıl yatan körpəsini qundağa büküb sinəsinə sıxdı. Alovlar içərisində özünü ora-bura çırpan insanlara qoşuldu.

Onların qarşısındakı sanki cəhənnəm idi, hər kəs bu cəhənnəmdən qurtarmağa can atırdı, amma hara gedirdilərsə düşmən onların yollarını kəsirdi. Ana isə “Yox, yox, mən səni heç kimə vermərəm”, – deyə qundağı var gücü ilə sinəsinə sıxırdı. Ana uzun bir yol keçərək bir küncdə gizləndi. Dodaqlarını qundağa yaxınlaşdıraraq “səs salmırsan körpəm, sanki bunları duyursan, anlayırsan, mənim balam” deyə-deyə qundağı sığallayırdı. Məsum ana elə düşünürdü ki, körpə balası bu dəhşətləri duyaraq ananı qoruyurdu... öz səssizliyi ilə, öz sakitliyi ilə!

Bir müddətdən sonra ara sakitləşdi. Əlləri donmuş ana qundağı açdı ki, körpəsini rahatlasın... bələk boş idi. Aman Tanrım, balam hanı ? – deyə ana fəryad elədi, ana şivən qopardı. Ananın fəryadı bütün ətrafa yayıldı, dağı-dərəni lərzəyə gətirərək titrətdi. Amma səsinə bir səs verən olmadı, səsi yalnız ətrafda dolanıb yenidən öz qəlbini paraladı... Od tutdu, yandı ananın ürəyi, param-parça oldu, amma yenə də balasından bir səs, bir xəbər eşitmədi...

Bu faciədən artıq 27 il keçir. İndi bu ana hərbi hissələrdən birində işləyir. Hər bir hərbçini öz doğma balası, övladı kimi sevir. Onlarla birlikdə ön cəbhəyə gedir, onlara kömək edir, onların qeydinə qalır. Axşamlar isə 27 il qabaq itirdiyi övladının əzizlədiyi qundağını sinəsinə sıxıb öz qara səhərini belə açırdı. Elə bil ki, itirdiyi körpəsinin ətri 27 ildir ki, bu qundaqda hopub qalıb. Ana bu qundağı bağrına basanda oğlunun sağ olduğuna inanır, bu qundağı qucaqlayıb əzizlədikcə sanki oğlunu əzizləyir, ona qayğı göstərir. Bu istək, bu inam ananı 27 ildir ki, yaşadır...

İşlədiyi hərbi hissədə bütün insanların anası idi. Onlara ağbirçəklik edirdi öz doğma balaları kimi. Hərbçilər də ananın bu hörmətini, bu qayğısını daim yüksəkdə tutardı və hər kəs onu öz doğması bilərdi.

Ana inanırdı... İnanırdı ki, oğlu sağdı və bir gün mütləq tapacaq onu. Tez-tez kənarda dayanıb bu cəngavər oğullara baxırdı və baxdıqca onların hər birində öz cizgilərini axtarar, oğlunu bəlkə də belə tapacağını düşünərdi. Heç ağlına da gətirməzdi ki, onunla üz-üzə əyləşən, uşaq evində böyüyən bu gənc onun öz doğma balası, 27 il öncə itirdiyi ürəyinin parasıdı.

Amansız müharibə dəhşətləri bu gəncin adını da dəyişmişdi, uşaq evində kimliyindən xəbəri olmadıqları üçün ona başqa ad verilmişdi.

Onun düz gözlərinin qarşısında əyləşib, amma tanımadığı oğlu ananın xeyir-duası ilə ailə qurdu, ata oldu.

Anaya dedilər sən qoy bu körpənin adını. Ana kövrəldi, ana sevindi və oğlana 27 il bundan qabaq itirdiyi öz doğma balasının adını qoydu – Taleh. Nə ana, nə də onun qarşısında fərəhlə dayanan bu gənc ata axı haradan biləydi ki, ananın ad qoyduğu Taleh elə onun öz adıdır...

Müharibənin dəhşətinə bax, İlahi. Ana gözünün qabağındakı oğlunu, oğul da ananı tanımır. Ömrünün sonuna qədər oğul həsrəti ilə yaşayacaq bu məsum ana, övladının gözlərinə baxa-baxa, amma onu tanımaya-tanımaya!

Budur, amansız müharibənin insanlara vurduğu yaralardan ən böyüyü və sağalmazı...

**Məryəm ƏLİYEVA**
**Kürdəmir rayon MKS-nin baş biblioqrafı**

## Xatirə təqvimi — 11-14 mart

### Azərbaycan

**11 mart 1925** – Xalq artisti Bəşir Səfəroğlu (1925 – 23.3.1969) anadan olub. 1942-ci ildən Musiqili Komediya Teatrında tamaşaçı rəğbəti qazanan obrazlar yaradıb. “Əhməd haradadır?”, “Ulduz”, “Xoca Nəsrəddinin 12 qəbri” (“Tacikfilm”) və s. filmlərdə çəkilib.

**12 mart 1904** – Xalq yazıçısı Əbülhəsən (Əlibaba oğlu Ələkbərzadə; 1904-1986) anadan olub. “Yoxuşlar”, “Müharibə”, “Dostluq qalası”, “Dünya qopur” və s. romanların müəllifidir.

**12 mart 1906** – Xalq şairi, dramaturq, Sosialist Əməyi Qəhrəmanı Süleyman Rüstəm (Süleyman Əliabbas oğlu Rüstəmzadə; 1906 - 10.6.1989) Bakıda anadan olub. Kitabları: “Ələmdən nəşəyə”, “İki sahil”, “Durna” (komediyalar), “Təbrizim”, “Azərbaycana gəlsin” və s.

**12 mart 1933** – Xalq şairi Cabir Novruz (Cabir Mirzəbəy oğlu Novruzov; 1933 -12.12.2002) Xızı rayonunun Upa kəndində doğulub. Şeirlərinə populyar mahnılar (“Cavanlığım”, «Ey həyat, sən nə qəribəsən», “Tələbəlik illəri”, “Tələsin, insanlar” və s.) bəstələnib.

**12 mart 1942** - Fəlsəfə elmləri doktoru, AMEA-nın akademiki Əfrand Firudin oğlu Daşdəmirov (1942-2015) Bakıda anadan olub.

**13 mart 1899** – Xalq artisti Məmmədəli Hacı Heydər oğlu Vəlixanlı (Heydərzadə; 1899 - 12.4.1969) Bakının Fatmayı kəndində doğulub. Milli Dram Teatrında fəaliyyət göstərib, “Görüş” filmində (Çayçı) çəkilib.

**13 mart 1927** – Xalq artisti Nodar Şaşıqoğlu (Nodar İzzətoviç Şaşıqoğlu; 1927 - 12.4.2013) Batumi şəhərində anadan olub. Moskva və Sankt-Peterburq teatrlarında, Azərbaycan Dövlət Rus Dram Teatrında çalışıb. “Uzaq sahillərdə”, “Əsl dost”, “Telefonçu qız” və s. filmlərdə yaddaqalan obrazlar yaradıb.

**13 mart 1928** – Əməkdar artist, skripka ifaçısı Azad Həmzə oğlu Əliyev (1928 - 17.8.1994) anadan olub. Azərbaycan Dövlət Simfonik Orkestrinin konsertmeysteri olub.

**13 mart 1994** – Görkəmli aktyor Həsən Abbasqulu oğlu Əbluc (22.4.1942 - 1994) vəfat edib. Teatr və televiziya tamaşalarında, kinoda (“Qanlı zəmi”, “Tənha narın nağılı”, “Ölsəm... bağışla”) maraqlı obrazlar yaradıb, “Pəncərə” filmini (Ə.Əbluc ilə birgə) çəkib.

**14 mart 1919** – Satirik şair Əliqulu Qəmküsar (Əliqulu Məşədi Ələkbər oğlu Nəcəfov; 1880-1919) Tiflisdə qətlə yetirilib. “Molla Nəsrəddin” jurnalının tanınmış müəlliflərindən olub.

**14 mart 1938** – Ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor Samət Qüdrət oğlu Əlizadə (1938 – 31.2.2002) Xızı qəsəbəsində anadan olub.

### Dünya

**11 mart 1544** – İtalyan şairi Torkvato Tasso (Torquato Tasso, 1544-1595) anadan olub.

**11 mart 1818** – Fransız əsilli rus baletmeysteri, tanınmış pedaqoq Marius İvanoviç Petipa (1818-1910) anadan olub.

**12 mart 1672** – İrland əsilli ingilis yazıçısı, maarifçi ədəbiyyatın banilərindən biri Riçard Stil (Richard Steele; 1672-1729) anadan olub.

**12 mart 1728** – Alman rəssamı, klassisizmin tanınmış nümayəndəsi Anton Rafael Menqs (Anton Raphael Mengs; 1728-1779) anadan olub.

**13 mart 1838** – İtalyan yazıçısı, tarixi romanlar (“Spartak” və s.) müəllifi Rafaello Covanyoli (Raffaello Giovagnoli; 1838-1915) anadan olub.

**13 mart 1900** – Yunan şairi, ədəbiyyat üzrə Nobel mükafatı (1963) laureatı Giorgos Seferis (1900-1971) anadan olub.

**13 mart 1910** – Türk yazıçısı Kamal Tahir Dəmir (1910 – 21.4.1973) anadan olub. “Əsir şəhərin insanları”, “Yeddiçınar yaylası”, “Yorğun savaşçı”, “Dövlət ana”, “Qurd qanunu” və s. romanların müəllifidir.

**13 mart 1913** – Rus şairi, yazıçı, dramaturq Sergey Vladimiroviç Mixalkov (1913-2009) anadan olub. SSRİ-nin və Rusiyanın dövlət himnlərinin sözlərinin, uşaqlar üçün çoxsaylı əsərlərin müəllifidir.

**14 mart 1681** – Alman bəstəkarı, musiqişünas Georq Filip Teleman (Georg-Philipp Telemann; 1681-1767) anadan olub. 40-dək operanın müəllifidir.

**14 mart 1804** – Avstriya bəstəkarı, skripkaçı, dirijor, “Vyana” valsının yaradıcısı Yohann Ştraus (Johann Strauss; 1804-1849) anadan olub. Üç oğlu (Yohann, Yozef, Eduard) da məşhur bəstəkar olublar.

**14 mart 1823** – Fransız yazıçı və şairi, incəsənət nəzəriyyəçisi Teodor de Banvil (Theodore Faullain de Banville; 1823-1891) anadan olub.

**Hazırladı: Vüqar ORXAN**

## AFİŞA — 13-15 mart

**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı (Nizami küç. 95)**

| | | |
|---|---|---|
| 13 mart | Q.Qarayev – "Leyli və Məcnun", "Don Kixot" (birpərdəli baletlər) | 19.00 |

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı (Füzuli meydanı 1)**

| | | |
|---|---|---|
| 14 mart | M.Qavran - “Qəribə, çox qəribə əhvalat” (A.M.Şərifzadə səhnəsi) | 19.00 |
| | Ə.Əmirli - “Ah, bu uzun sevda yolu” | |
| 15 mart | Y.Polyakov - “Sinif yoldaşları” | 19.00 |

**Azərbaycan Dövlət Musiqili Teatrı (Zərifə Əliyeva küç. 8)**

| | | |
|---|---|---|
| 15 mart | E.Sabitoğlu, V.Kolmanovski - “Bir dəfə Bağdadda” (rus dilində) | 19.00 |

**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı (Nizami küç. 72)**

| | | |
|---|---|---|
| 14 mart | H.Cavid - “Ana” | 16.00 |
| 15 mart | “Suvar” ləzgi ansamblının konserti | 19.00 |

**Azərbaycan Dövlət Kukla Teatrı (Neftçilər pr. 36)**

| | | |
|---|---|---|
| 15 mart | Azərbaycan xalq nağılı - “Ağ babanın nağılı” | 12.00 14.00 |
| | Azərbaycan xalq nağılı - “Şəngülüm və Məngülüm” | 16.00 |

**Azərbaycan Dövlət Akademik Filarmoniyası (İstiqlaliyyət küç. 2)**

| | | |
|---|---|---|
| 14 mart | “Gənclərə dəstək” layihəsi Fortepiano musiqisi axşamı (solist Toğrul Hüseynli) | 19.00 |
| 15 mart | Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri Bədii rəhbər və baş dirijor - Rauf Abdullayev | 19.00 |

**Beynəlxalq Muğam Mərkəzi (Dənizkənarı Milli Park)**

| | | |
|---|---|---|
| 14 mart | Muğam Televiziya Müsabiqəsi - 2019 | 21.00 |

# Moskvada Vaqif Mustafazadənin xatirəsinə həsr olunmuş caz gecəsi

Moskvadakı İqor Butman klubunda Azərbaycanın görkəmli caz bəstəkarı və pianoçusu Vaqif Mustafazadəyə (1940-1979) həsr olunmuş caz gecəsi keçirilib.



Sənətkarın doğum günü (16 mart) ərəfəsində Moskvanın məşhur caz məkanlarından birində əsərləri səslənib.

Konsertdə iştirak edən maestro İqor Butman məşhur Azərbaycan caz bəstəkarı və ifaçısı Vaqif Mustafazadənin xatirəsinin daim cazsevərlərin qəlbində olduğunu qeyd edib. O deyib: "Mən onun yaradıcılığı ilə hələ çox gənc yaşlarımda tanış olmuşam. Vaqifin Sankt-Peterburqun "Kvadrat" caz klubunda və "Payız ritmləri" caz festivalında çıxışlarını heç zaman unutmaram. Sonralar biz qastrol səfərlərində görüşürdük. Onun ifasını dinləmək insana böyük zövq verirdi".

Tanınmış caz ifaçısı Rusiya ilə Azərbaycan arasında mədəni əlaqələrin inkişafının əhəmiyyətini vurğulayıb: "Sovet dönəmində bütöv bir nəsil Polad Bülbüloğlunun mahnılarını sevə-sevə dinləyib. İndi də Azərbaycanda gənc musiqiçilər nəsli yetişir. Məsələn, çox istedadlı pianoçu İsfar Sarabski ilə mən Parisdə caz festivalında tanış oldum və onunla bir səhnədə çıxış etmək mənə böyük zövq verdi".

İqor Butman Azərbaycana sonuncu səfərini xatırlayaraq Bakının beynəlxalq mədəni tədbirlərin keçirildiyi mərkəzə çevrildiyini bildirib.

Xatirə gecəsində çıxış edən Azərbaycanın Rusiyadakı səfirliyinin əməkdaşı Nigar Axundova, Vaqif Mustafazadənin ev-muzeyi və fondunun rəhbəri Afaq Əliyeva, pianoçu Qriqori Fayn və başqaları çıxış edərək görkəmli musiqiçinin bənzərsiz, virtuoz ifa texnikası, özünəməxsus harmonik dili ilə dinləyicilərin qəlbini fəth etməsindən danışıblar, sənətkarın ilk dəfə caz musiqisində Azərbaycan koloritindən, muğamlardan istifadə etdiyini, caz-muğam janrının banisi olduğunu qeyd ediblər.

# Qoçaq Əsgərov Bəhreyndə səhnəyə çıxıb



Tanınmış xanəndə, Əməkdar artist Qoçaq Əsgərov Bəhreyndə konsert proqramı ilə çıxış edib.

Bu barədə təəssüratlarını bölüşən xanəndə deyib ki, konsert zamanı onu tarda İbrahim Babayev, kamançada Elnur Mikayılov, nağarada Əməkdar artist Kamran Kərimov müşayiət edib.

"Konserti Fransada yaşayan əlcəzairli Naila əl-Xaleq təşkil etmişdi. Bu xanımla bizim müqaviləmiz var, o, bizim Türkiyə, İran və ərəb ölkələrindəki konsertlərimizin təşkilatçılığını üzərinə götürüb. Bəhreyndəki konsertdə "Mahur" muğamını, "Şur" kompozisiyasını, "Bayatı-Şiraz" təsniflərini ifa etdik. Düşünürəm ki, konsertimiz insanlar tərəfindən bəyənildi", - deyə Q.Əsgərov söyləyib.

Aprel ayında növbəti qastrol konsertlərinin nəzərdə tutulduğunu deyən xanəndə bildirib ki, Fransa, Türkiyə, Livan və digər ölkələrə səfəri planlaşdırılır.

Xatırladaq ki, xanəndə bundan öncə Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə konsert verib. Konsertdə xanəndənin "Şur" muğamını ifa etməsi zalda böyük coşqu ilə qarşılanıb.

# "Xiffətdə olan qadınlar"ın sərgisi

Lüksemburqda "Xiffətdə olan qadınlar" xeyriyyə assosiasiyası qadın rəssamların əsərlərindən ibarət kollektiv sərgi təşkil edib. Sərgidə azərbaycanlı rəssam Aynur Qasımovanın da əsərləri yer alır.

Uşaqlara rəssamlığın ən incə elementlərini tədris edən gənc azərbaycanlı rəssam təkcə rəsmlə kifayətlənməyib, mahnıya, poeziyaya da yer ayırır. O, əsərlərində daha parlaq rənglərə üstünlük verir. Ölkəmizin təbiətinə vurğun rəssam əsərlərində tariximizi, bu günümüzü və təbiətimizi tablolara köçürür.

"Ümumiyyətlə, hər bir rəngi sevirəm. Çünki hər rəngin öz nadir gözəlliyi və yeri var. Bakını çəkərkən narıncı, sarı, mavi, günəşin şəfəqlərinin çalarlarını əks etdirən parlaq, gözoxşayan rənglərə üstünlük verirəm. Çalışıram ki, əsərlərimə uşaq sevincini, gülüşünü, ruhunu, cizgi üslubunu daxil edim. Uşaqları çox sevirəm. Onların təmiz daxili aləminə, həyata baxışlarına, məsum arzularına, zövqlərinə heyranam. Uşaqların bütün istəklərini əsərlərimdə canlandırmağa çalışıram. Uşaqlar da rəngarəngdir", - deyə rəssam bildirib.

Qeyd edək ki, Lüksemburq "Xiffətdə olan qadınlar" assosiasiyasının builki sərgisində 22 qadın rəssam, heykəltəraş, fotoqraf və dizaynerin əsərləri nümayiş olunur. Satılan əsərlərdən əldə olunan mənfəətin 30 faizi çətinlikdə olan qadınlara yardım məqsədilə assosiasiyanın hesabına köçürüləcək.

Xeyriyyə sərgisi aprelin 30-dək davam edəcək.

# "Dünyanın 50 delikatesi"ndə bizim xörəklərimiz də var

Macarıstanın Peç Universitetində "Dünyanın 50 delikatesi" adlı kulinariya kitabının təqdimatı keçirilib.



Macarıstanda akkreditə olunmuş diplomatik korpusun təmsilçilərinin, 80 ölkədən olan tələbələrin qatıldığı tədbirdə Azərbaycan səfiri Vilayət Quliyev də iştirak edib.

Kitabda dünyanın 50 ölkəsinin müxtəlif yeməklərinin reseptləri və həmin ölkələrin milli mətbəxlərinə dair illüstrasiyalı məlumatlar yer alıb. Səfirliyin universitet ilə əməkdaşlığı nəticəsində Azərbaycanın milli mətbəx nümunələrindən dolma və ləvənginin resepti kitaba daxil edilib.

Tədbirdə səfir Vilayət Quliyev və Peç Azərbaycan Cəmiyyətinin sədri Cavid Əhmədovun da iştirakı ilə ləvənginin hazırlanması nümayiş olunub.

Səfir qeyd edib ki, Azərbaycan mətbəxi zənginliyi və təkrarolunmaz dadı ilə fərqlənir. Xəzər dənizinin zəngin faunası dəniz məhsullarının da Azərbaycan mətbəxində geniş şəkildə istifadə edilməsinə imkan yaradır.

Səfir, həmçinin universitetdə təhsil alan 50-dək azərbaycanlı tələbə ilə görüşərək öz tövsiyələrini verib və ölkəmizin təbliği baxımından əhəmiyyətli hesab edilən bu kimi tədbirlərdə gənclərimizi fəal olmağa çağırıb.

# "Yoldaş Saaxov" dünyasını dəyişib

Tanınmış teatr və kino aktyoru, pedaqoq, Rusiyanın və SSRİ-nin Xalq artisti Vladimir Etuş martın 9-da, 97 yaşında vəfat edib.



Uzun sənət ömrü yaşayan aktyor həyatının son aylarınadək səhnədə çıxış edib. 30-dan çox filmdə çəkilib. Rejissor Leonid Qaydayın "Qafqaz əsiri", "İvan Vasilyeviç peşəsini dəyişir" kinokomediyalarında yaratdığı obrazlar ona böyük şöhrət qazandırmışdı. Keçmiş SSRİ məkanında yaşlı və orta nəsil onun "Qafqaz əsiri və ya Şurikin başqa macəraları" komediyasında yaratdığı Saaxov obrazını hər zaman xüsusi təbəssümlə xatırlayır.

Vladimir Abramoviç Etuş 1922-ci il mayın 6-da Moskvada anadan olub. Atası Abram Savelyeviç inşaatçı, anası Raisa Konstantinovna isə fotoatelyedə kassir işləyib. Vladimir uşaqlıqdan evdə nənəsinə və bacılarına səhnəciklər göstərməyi xoşlayıb. Orta məktəbdə yaxşı oxuyub. Lakin 15 yaşında ikən atasının repressiya olunmasından sonra məktəbdə müəllimlərin və direktorun ona qarşı münasibəti dəyişir. Bununla belə, o, dərslərindən geri qalmamağa çalışır, məktəbdə teatr dərnəyinə yazılır.

Orta məktəbi bitirəndən sonra aktyor yox, rejissor olmaq qərarına gəlir, amma ali məktəbə qəbul ola bilmir. Vaxtanqov adına Teatrda rejissor köməkçisi olaraq işə düzəlir, sonra Şukin adına Teatr Məktəbinə qəbul olur. I kursu bitirəndə müharibə başlayır.

Alman dilini yaxşı bilən Vladimiri Stavropola tərcüməçilik məktəbinə göndərirlər. Bir müddət sonra da cəbhəyə tərcüməçi kimi göndərilir. 1943-cü ildə Ukrayna döyüşlərinin birində ağır yaralanır. II qrup əlil olur, ordudan tərxis edilir.

Nəhayət, 1945-ci ildə Şukin adına Teatr Məktəbini bitirir və Vaxtanqov adına Teatrda işləməyə başlayır. Eyni zamanda teatr məktəbində müəllim kimi də fəaliyyət göstərir. 1976-cı ildə professor, 1987-ci ildə isə məktəbin rektoru olur.

Kinoda debütü 1953-cü ildə Mixail Rommun "Admiral Uşakov" filmi ilə başlayır. Əsasən kəskin xarakterli rollar ifa edib. Lakin geniş tamaşaçı kütləsi Vladimir Etuşu daha ços komediya filmlərindən tanıyıb. Ona böyük şöhrət gətirən Saaxov rolu haqqında fikirləri də maraqlıdır. Aktyor deyirdi ki, müharibə vaxtı Gürcüstandan Dağıstana qədər bütün Qafqazı gəzib, yerli koloriti kifayət qədər öyrənib, ona görə də Saaxov rolunu asanlıqla oynayıb.

Vladimir Etuş Azərbaycanda da özünə çoxlu pərəstişkar qazanıb. 2011-ci ildə o, baş rolda oynadığı "Neapol ehtirasları" tamaşası (Eduardo de Filipponun pyesi əsasında) ilə Bakıda çıxış etmişdi.

2013-cü ildə isə Azərbaycan Dövlət Rus Dram Teatrında Vladimir Etuşun yaradıcılıq gecəsi keçirilmişdi.

**SƏBİNƏ**

# İspaniyada türk seriallarına maraq artır

İspaniyada getdikcə populyarlaşan türk serialları Latın Amerikası ölkələrinin istehsalı olan "sabun operaları"nın yerini tutmağa başlayıb.

"Mediaset" media və telekommunikasiya şirkətinin məlumatına görə, İspaniya bundan öncə Rumıniya, Bolqarıstan və Slovakiyada populyar olan türk serialları dəbinə birdən-birə qapılmayıb. Bu seriallar başqa ölkələrdə tamaşaçı rəğbəti qazanandan sonra İspaniyanın media şirkətləri onları bazara çıxarmağı qərara alıblar. "Qara sevda", "Cəsur və gözəl" kimi seriallar "Mediaset"in internet portallarında ən baxımlı filmlər cərgəsinə daxil olub.

Ekspertlər bildirirlər ki, tamaşaçılar klassik "sabun operaları" və narkotik alverçiləri haqqında standart süjetli Latın Amerikası serialları ilə müqayisədə türk serialları daha müasir, tamaşaçı ilə daha güclü emosional əlaqə yaradan ekran əsərləridir.

# Aleksandr Serov Bakıda konsert verəcək

Aprelin 29-da Heydər Əliyev Mərkəzində Rusiya Federasiyasının Xalq artisti Aleksandr Serovun solo konserti olacaq.




Məşhur estrada ulduzu konsert proqramında milyonların sevgisini qazanmış hitləri ilə yanaşı, yeni mahnılarını da təqdim edəcək.

Aleksandr Serov müğənni, instrumental ifaçı, şair, bəstəkar və aranjimançıdır. O, ötən əsrin 80-ci illərində məşhurlaşıb, sevgi mahnıları ilə qəlbləri fəth edib. Aleksandr Serov 40 ildən çox yaradıcılığı ərzində müxtəlif albomlar yazdırıb. Onun bir çox məşhur mahnılarının bəstəkarı İqor Krutoy olub.

# Azərbaycanı "Eurovision 2019"da Çingiz Mustafayev təmsil edəcək

Bu ilin mayında İsrailin Təl-Əviv şəhərində keçiriləcək "Eurovision 2019" mahnı müsabiqəsində ölkəmizi gənc müğənni və bəstəkar Çingiz Mustafayev təmsil edəcək.



İctimai Televiziya və Radio Yayımları Şirkətindən verilən məlumata görə, müğənni səhnəyə bolqarıstanlı-avstriyalı bəstəkar Borislav Milanovun "Truth" ("Həqiqət") mahnısı ilə çıxacaq.

"Etiraf edirəm ki, bu mahnının Çingizə uyğun olacağına əmin deyildim. Çünki o, flamenko və gitaranı sevən milli musiqiçidir. Şəxsi tanışlıqdan sonra isə fikirlərim dəyişdi. O, ehtiraslı musiqiçi və müğənnidir. Onunla birlikdə mahnıya Azərbaycanın milli ifaçılıq manerasını qatdıq", - deyə Borislav Milanov bildirib.

Qeyd edək ki, bəstəkarın mahnısı İTV-nin bu ilin yanvar ayında təşkil etdiyi milli seçim turunda müxtəlif ölkələrdən göndərilmiş mahnılar arasından seçilib. "Truth" mahnısı sevgi və xəyanətdən bəhs edir...

# "Oturacaqlar"a yer verilib

Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının nəzdində fəaliyyət göstərən Gənc Sinemaçılar Klubunun üzvü Orxan Ağazadənin "Oturacaqlar" filmi Türkiyədə keçirilən 7-ci "Changing Perspectives" qısametrajlı film festivalının əsas mükafatına ("Potluck") layiq görülüb.




Kinostudiyadan bildirilib ki, azərbaycanlı və ingilis kinematoqrafçıların birgə ərsəyə gətirdiyi filmin ssenaristi və quruluşçu rejissoru Orxan Ağazadə, quruluşçu operatoru Kameron Vard, quruluşçu rəssam və kostyum dizaynı Lara Zeidan, musiqi müəllifi Məməd Ansa, baş prodüseri Mina Salimi, prodüserləri Azər Həsənov və Ruslan Ağazadədir. Rolları Səyyad Əliyev, Zülfiyyə Nəzər Məmmədova, İsgəndər Abbasov və başqaları oynayırlar.

# Almaniya qəzetləri heykəltəraş soydaşımız haqqında

Xəbər verdiyimiz kimi, Almaniyada yaşayan heykəltəraş soydaşımız İlqar Şeydayevin Baden-Baden şəhərindəki Deqlov incəsənət qalereyasında (Deglow Art Galerie) sərgisi təşkil edilib. Sərgi yerli sənətsevərlər və kütləvi informasiya vasitələri tərəfindən maraqla qarşılanıb.


Sinnliche Kunst aus kaltem Altmetall

"Badische Tagblatt" və "Baden-Baden aktuell" qəzetlərində sərgi haqqında məqalələr dərc olunub.

Məqalələrdə vurğulanır ki, gənc heykəltəraş əsərlərində karton və gipsdən istifadə edərək Nikola Tesla, Frans List, Bethoven və Eynşteyn kimi dahi şəxsiyyətlərin realistik büstlərini hazırlayıb. Yazılarda heykəltəraşın digər əsərləri haqqında məlumat verilir, İ.Şeydayevin məşhur "Violonçelli xanım" heykəlinin sərginin açılışında nümayiş olunduğu bildirilir.

Qeyd edək ki, İlqar Şeydayevin Deqlov incəsənət qalereyasında sərgisi aprelin 6-dək davam edəcək.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Moskva pr, 1D.
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-57-72 (redaktor)
530-34-38 (məsul katib)
430-16-79 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5245
**Sifariş:** 954
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.